Ocaq Yükümlüsü Soylu Atalının evinə
Asif Ata Mütləqə İnam Ruhaniyyatının –
Qutsal Onluğun Qəbul Törəni

**G e d i ş a t**

**Yer:** Soylunun evi (Saray-Soylu qəsəbəsi).
**Gün:** 29 Qürub Ayı, 31-il.
**Başlanır:** 18.00

Otaq Törənə hazırlanır: ağ, sarı, qırmızı çiçəklər, şamlar, texniki vasitələr. Təşkilatca sorumlu Göylü və Uluruh.

*Bayraq* gətirilir.

Törən "Ata Ruhuna Pənah gətirmişik!" Səcdəsilə başlanır.

- Ocaq Yükümlüsü Soylu Atalının ilk sözü.
- Hamı ayaq üstə sayğı durumunda dayanır. Nurtəkin və Göylü Bitiqləri Özül üzərində odaya gətirirlər.
- Safruh Bitiqləri təqdim etmə sözü deyir və bir-bir adlarını deməklə Soyluya təqdim eləyir. Soylu öpüb gərəkli bildiyi sözü deyərək Türkelə verir. Türkel Bitiqləri bir-bir öpüb üstü şamlı stolun üstünə düzür.
- Ocaq Yükümlsü Soylu Atalının sözünün davamı.
- Safruh Bitiqlərin ikinci dəsti haqqında söz deyir.
- Sonra istəyən Ocaqçılar Ata, Mütləqə İnam Onluğu və Ocaq Yükümlüsü haqqında söz deyirlər.

- "Dünyadakı Mütləqlə Axşam Təması"nı Uluruh,
- "Ataya Axşam Ricası"nı Güntay deyir.
- "Ata Ruhunu Ürəyimizdə aparırıq!",
- "Atamız var olsun!" səcdəsilə Törən bitir.
- Sonda çay süfrəsi açılır.

**Günün carı:**

Qutsal Bitiqlərimiz Yurdumuzu Müqəddəs Ünvana çevirməkdə!

Gedişatı yazdı: **Türkel Atalı**
*22 Qürub Ayı, 31-il. İnam Evi.*

*Qəbul olunur.*

***Ocaq Yükümlüsü Soylu Atalı***

22 Qürub Ayı, 31-il. Saray-S.

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Ruhani Bəlgə

Mütləqə İnam Ocağının Müqəddəs ənənələrindən biri – "Qutsal Bitiqlərin Ünvanlaşması", – Ocaq tarixinin Qızıl Dövrü adlanır.

İlk İnam Evindən sonra yeni "Qutsal Bitiq Ünvanları" yaranır. (10+3). Qutsal Bitiqlər türk və latın qrafikalarında hazırlanaraq İnam Evlərində, Evladların və İnamçıların ünvanlarında Qutsal Törən keçirilərək Mütləqə İnam Ocağı tərəfindən qəbul olunur. İlk İnam Evində qəbul olunan Qutsal Bitiqlərə Münasibət Bəlgələrinin tələbləri "Bitiqləşən" ünvanlarda qüvvəyə minir.

Qutsal Bitiqlərin Qəbul Törəni türk abesi ilə yazılmış variantlara görə gerçəkləşdirilir.

Qutsal Bitiq Ünvanlarının yaranma prosesi – İnamın xalq tərəfindən bütöv, rəsmi qəbul olunmasına qədərki mərhələni əhatə edir. Bu mərhələdən sonra Qutsal Bitiqlərin toplandığı evlər "Qutsal Bitiq Ünvanı" sayılmır. "Sayılan" ünvanların isə əlavə imtiyazı olmur – "pirləşmir", İnam Evinə bərabər tutulmur. Sadəcə bu ünvanların yurdumuzun ruhani özünəməxsusluğunun təsdiq olunmasına göstərdiyi ruhani xidmətə görə nəsillər tərəfindən sayğı ilə xatırlanır.

Türk Ulusunun Peyğəmbərinin öz Qutsal Bitiqləri ilə, öz ulusunun abesində xalqın evlərində ünvanlaşma dövrü – Ocaq Tarixinin Qızıl Dövrü.

Ocaq tarixinin Qızıl Dövrü Günəş Ayının 22-si, 31-il – Qutsal Bitiqlərin ilk İnam Evində Qəbul Törəninin tarixindən başlayır!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız var olsun!

**Ocaq Yükümlüsü Soylu Atalı**

*21 Qürub Ayı, 31-il. Saray-S.*

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Ruhani Bəlgə

İlk İnam Evindən sonra, 29 Qürub Ayı, 31-il tarixdə Ocaq Yükümlüsünün yaşadığı evə Qutsal Bitiqlərin Qəbul Törəni keçirilir.
Törən bir dəfə qeyd edilir və Ocaq tarixinə yazılır.
Törən Mütləq Doğmalıq, Mütləq İntizam və Mütləq Səcdə əsasında gerçəkləşir.
Törənin gedişatını Safruhun məsləhəti ilə Türkel yazır, Qürub Ayının 24-də Ocaq Yükümlüsünə təqdim edir.

Atamız var olsun!

**Ocaq Yükümlüsü Soylu Atalı**

*21 Qürub Ayı, 31-il. Saray-S.*

*Bayraq gətirilir.*

***Hamı:*** Ata Ruhuna pənah gətirmişik!

***Soylu Atalı:*** Hələ ki əyləşin. Əyləşin. Şamları yandırın. Bu şamlar Ruhani İntibahın 6 ideyasının rəmzi olaraq 6 dənə seçilib.

***Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə!***

Müqəddəs gündə sözümə başlamazdan öncə Ataya Səcdə qılıram və Bayrağımızı öpürəm.

Mütləqə İnam Ocağının Müqəddəs ənənələrindən biri – "Qutsal Onluğun Ünvanlaşma" hadisəsi davam eləyir. İlk olaraq Qutsal Onluğumuzu Mütləqə İnam Ocağının ilk İnam Evinə qəbul elədik. Bundan sonra bizim Bitiqlərimiz ayrı-ayrı ünvanlara qəbul olunacaq. Yəni ilk növbədə Ocaqçı evinə, eyni zamanda İnamçı evinə və beləliklə, yurdumuza yayılacaq. İkinci İnam Evinə, o birinə və s.

Qutsal Bitiqlərimiz hansı ünvana qəbul olunacaqsa, həmin ünvanda törən keçirilir və bu törən də tarixi bir hadisə kimi Ocaq tarixinə yazılır. Sonradan törənin gedişi kitablaşdırılır və evdə, ünvanda Qutsal Bitiqlərin qoyulduğu ən uca ünvanda, daha doğrusu, uca bir yerdə həmin kitab (törənin gedişini əks etdirən kitab) da onların yanına qoyulur. Mən gələcək üçün bəzi məqamları nəzərə almışam. Həm də bəzi gedişlərin qarşısını almaq məqsədilə. Ocaq ənənəsi baxımından Ruhani sənədlər yazmışam. O Ruhani Sənədlər belə bir məqsəd daşıyır. Adətən dünyabaxışlar, əsasən dinlər özlərinin davamıyla, dalınca çox qəribə olaylar nümayiş etdirib. Bu gün də biz onların şahidiyik. Ayrı-ayrı pirlər yaranır, ayrı-ayrı, nə bilim mən, günbəzlər yaranır, ayrı-ayrı sanki Allahın dərgahları yaranır, xüsusi ünvanlar, filan. Halbuki heç bilmirsən o nə deməkdir, orda nə baş verir məlum deyil.




*Ocaq Yükümlüsü Soylu Atalı törənə giriş sözü deyir*

Mütləqə İnam Ocağı insanı oynadan, xalqı oynadan, gələcəkdə onu aldadan, başına soğan doğrayan hər cür eybəcərliyə son qoyur və özü qəti ardıcıl olaraq belə şeyə yol vermir, getmir. Dirəniş göstərir. Bizim ünvanlarımıza qəbul elədiyimiz Qutsal Bitiqlərimiz ünvanlarımızda bir cəhətlə fərqlənir. Belə bir cəhətlə ki, əslində burada olan Qutsal Bitiqlərimiz xalqımızın içində Müqəddəs Kitablarımızın yayılma ənənəsinin təsdiqinə

yardımçı olur. Bizlərdən başlayır, evlərimizdən başlayır bu ənənə və gələcəkdə hansı evlər ki, ünvanlaşır, ona mən "Qutsal Onluq Ünvanı" deyirəm, – "Qutsal Bitiq Ünvanı". "Qutsal Bitiq Ünvanları" gələcək nəsillər tərəfindən sayğıyla xatırlanacaq, sayğıyla anılacaq. O mənada ki, onlar ilkinlərdir. Onlar qeyrət göstəriblər. Onlar ləyaqət göstəriblər xalqın içində. Evlərindən Quranı qırağa qoyublar, İncili qırağa qoyublar. Daha hansı dünyabaxış kitabları varsa, qırağa qoyublar. Türkün öz müqəddəs kitabını öpüb, gözünün üstünə qoyub evində – uca bir yerdə saxlayıbdı. Bu belə bir xidmətə görə həmin ünvanlar dəyərlənir. Həmin ünvanlara sayğı bəslənilir. Amma bu ünvanlar pirləşdirilmir, əcinələşdirilmir. Bu ünvanlar əlahiddə bir səlahiyyət daşımır. Bu ünvanlar İnam Evlərinə bərabər tutulmur. Bu ünvanlar bizim hər birimizin yaşadığımız məişət evidir. Dediyim o ləyaqətli işi gördüyünə görə belə bir sayğı halı yaradır. Yəni Müqəddəs kitab ora qəbul olunub.




*Törən'in gedişi...*

Qutsal Bitiqlərimizi qəbul eləyəndə 2 variant 2-si də eyni vaxtda qəbul olunmalıdır. Hər 2 variant. Çünki əsasən bizim məqsədimiz öz əlifbamızda – türk əlifbasında öz Müqəddəs Kitabımızı evimizdə saxlamaqdı. Öz əlifbamızda onu oxumaqdır, öyrənməkdir, öyrətməkdir. Məqsəd budur. İndi bu gün biz istəsək də, istəməsək də birdən-birə bu baş tutan iş deyil. Müəyyən bir yol keçilməlidir. İndi xalqın tanıdığı, öyrəndiyi, bildiyi əlifbada da (latın qrafikasında) onu hazırlamalıyıq ki, onu oxumaq və oxutmaq mümkün olsun. Ona görə hər 2 variant. Bir daha deyirəm ki, törən isə yalnız türk variantına görə gerçəkləşdirilir. Əgər kimsə evinə yalnız türk variantını qəbul eləyərsə, biz yenə törən keçirəcəyik. Amma kimsə evinə yalnız latın qrafikalı Bitiqləri qəbul eləyərsə, onda törən keçirməyəcəyik. O doğru deyil. Onda biz özümüz öz qaydamıza qarşı getmiş olarıq. Öz əlifbamızı dışlamış olarıq. Ona özümüz sayğısızlıq etmiş olarıq. Nəinki sayğısızlıq, bu, böyük bir xəta olar. Türk millətinə biz əlifba yaradaq, sonra da təzədən duraq ona laqeyd olaq və s. doğru deyil. Ona görə belə şeylər Ocaqçılarımızın, Ocaqsevərlərimzin, dostlarımızın, İnamçıların ağlında

oturuşmalıdr. Bunu demək lazımdır. Deyilməlidir. Çəkinməməlisiniz. Hər bir ünvana Bitiqlər qəbul olunacaq. Sizin hər birinizin qonunuz var, qonşunuz var. Qonşunuzda Quran var. Qonşunuzda başqa Kitab var. Bunun basqısı heç kimi çəkindirməsin. Heç bir Ocaqçını çəkindirməsin. Evinin içində, yurdunda ənənə yaratmaqdan qorxarsansa, əlinin arxasını bəri başdan yerə qoyarsansa, çox pis bir hadisə olar. Çox pis bir hadisə olar. İndi bizim gəlişimizlə qoy qonşular da ölçü götürsün. Qoy qonşular da düşünə bilən düşünsün, düşünməyən sonra düşünsün. Amma bilsin ki, fərqli bir ünvandır bura. Burda başqa bir kitab var. Burda başqa ənənə var və bunu da bildirməkdən, deməkdən çəkinməyin. Ləyaqət vaxtıdır, qeyrət vaxtıdır, hünər vaxtıdır. Dinin həşirləri artdıqca ondan qorxmaq lazım deyil. Dinin həşirləri artır, cəmiyyətdə oruc tutanların sayı çoxalır, əyilib-qalxanların sayı çoxalır. Qorxmayın belə şeydən. Qətiyyətli olmaq lazımdır. Mən gəlmişəm, sən getməlisən. Prinsip olmalıdır. Mən gəlmişəm. Mənim evimdə, yurdumda əlavə nəfəs olmamalıdır. Üfunət olmamalıdır. O mənim üçün üfunətdir. Boğuluram mən. Mənim evimə dolma. Onu açıq şəkildə demək lazımdır. Belə bir halət. Sonra Bitiqlərimiz qəbul eləyərkən, törən keçirərkən hələ ki Ocaq tədbirlərində çalışırıq ki, bütün Ocaqçılar iştirak eləsin. İştirak eləməyə də bilər uzaqda olan, gəlmək imkanı olmayan. Yəni Bitiqlərin qəbulunda. Kimlərinsə qaçılmaz işi olar. Yolnurun, məsələn, durub Şəmkirdən bura gəlməsi. Onu darıxdırmağa ehtiyac yoxdur. Yüksək onun kimi. Daha kim var bilmirəm. Onun kimi. Ancaq mümkün qədər çalışıb iştirak eləmək gərəkdir. Hər bir Ocaqçı, Amaldaş öz Amaldaşının yanında olmalıdır. Onun çiyninə çiyin söykəməlidir. Onun işini qabağa aparmalıdır. Əslində Ocağın işini qabağa aparmalıdır. İçdən, çox belə şövqlə, yəni yola vermək səviyyəsində yox, quruculuq səviyyəsində. Haqq quruculuğudur bu. Çox ağıllara hələ çatmır. Çatmayacaq. Məsum uşaqların, 3-5 uşağın xalq yaratmasına inanmırlar. İnana bilmirlər. Ağıl dərinlərə işləmir, getmir. Ruhaniyyat məsələsi ilə elmi qarışdırırlar, daha nələri qarışdırırlar, siyasəti qarışdırırlar. Siyasətdə gərək bir az bazburutlu kişi olsun, televiziya olsun, kanal olsun, onu nümayiş etdirsin, onu təbliğ eləsin. Onun yanında cangüdənlər gəzsin. Hə, onda demək bu nəsə eləyə bilər. Siyasət budur. Ruhaniyyatda ruhaniyyatı bunlar yaradacaq. Bax, bu gözünü döyən körpə uşaqlar, bax bu məsum uşaqlar yaradacaq. Biz əslində Ocağı Atadan sonra yaşadırdıq, aparırdıq çox qəribə, heç özümüz öz işimizin enini, uzununu bilmirdik təzə-təzə. Bilmirdik ki, nə iş görürük. Amma çox belə şövqlə, yanğıyla, ciddi cəhdlərlə addımlar atırdıq və o addımlar üst-üstə qalandı, böyüdü, artdı. İndiki səviyyəmizə gəldi çıxdı. İndiki səviyyəmiz az deyil. Hara gedirsən Ocağın sorağı var. Hara gedirsən Ocağın adı var. Ciddi sayırlar Ocağı. Xüsusilə dünyabaxış sahibləri Ocağı çox ciddi sayır. Sayrışdırırlar. Hünəri də var sayrışdırmasın. Nəyiylə sayrışdırmayacaq. Min illərin çürümüş, ətalətdə qalmış baxışıyla, ideyasıyla?! Nəyiylə sayrışdırmayacaq bu cür qabaqcıl bir ideyanı?! Ona görə hara gedirsiz o var. Ata çox ciddi iş gördü. O iş də indi davam eləyir.

Göyərti əkirdik mənim həyatimə. Göyərti əkirdik, 3-5 Ocaqçı, kim idi? Göylü idi, Nurtəkin idi, Uluruh idi, sonra Üstün idi, Safnur idi, Ucatay idi. Bunlar yığışmışdıq...

*(Əkbər Qoşalı ilə Namiq Hacıheydərli gəlir. Bu adamlar Dünya Gənc Türk Yazarlar Birliyinin şairləridir. Əkbər Qoşalı qurumun rəhbəridir).*

Gəlin, xoş gəlmisiniz. Buyurun əyləşin, xoş gəlmisiniz.

Gəlin, xoş gördük. *(Soylu Atalı sözünə davam edir).* Bizim qardaşlarımızın gəlişiylə bağlı deyim, onlar bilsinlər söhbət nədən gedir. Asif Atanın Mütləqə İnam Ocağı Qutsal Bitiq, yəni Müqəddəs Onluq hazırlayıb. Daha doğrusu, Asif Atanın kitabları on cilddə və üç əlavə cilddə hazırlanıb tərtib olundu və təqdim olundu. Və onlar İnam Evində Mütləqə İnam Ocağının İlk İnam Evində ciddi bir törən səviyyəsində qəbul olundu. Ora xalqın nümayəndələri dəvət olundu xeyli sayda və törən keçirildi. Xalqa təqdim olundu. Bizim Qutsal Bitiqlərimiz, Müqəddəs Kitabımız gəlib xalqın içinə. Qəbul olundu. O ənənə davam eləyir

və bizim istəyimiz odur ki, Müqəddəs Kitablarımız – Qutsal Onluğumuz Ocaqçıların, İnamçıların, Ocaqsevərlərimizin, dostlarımızın evlərinə qəbul olunsun. O cümlədən deyək ki, yarandıqca başqa İnam Evlərinə. Deyək ki, bizim Qədimyurdda İkinci İnam Evimiz var. Ora qəbul olunacaq. Şəmkirdə bizim İnam Evi yaratmaq planımız var. Gerçəkləşməli olan bir hadisədir. Ora qəbul edəcəyik. Beləliklə ayrı-ayrı ünvanlara. Deməli, bu ünvanlardan elə biri mənim ünvanımdır. Ocaq Yükümlüsü olaraq mənim ünvanıma (evimə) Asif Atanın Müqəddəs Kitablarının qəbul olunması. Burada hökm deyil, çox adam olsun. Bizim otaqlarımız da dardı çox. İnsanları dəvət eləməmişik bura. Amma biz istəyirik ki, elə qonum-qonşudan bir-iki nəfər olsun, yəni şahidi olsun qonum-qonşu. Balaca uşaqlar olsun, cavan uşaqlar olsun. Şahidi olsun. Hələ ki təbiidir ki, bu iş böyük bir çətinliklə gedən prosesdir. İnam Evinə adət eləyiblər adamlar. Düzdür mənim evim də uzaq bir məsafədir. Amma gərək uzaqlıq gözə görünməsin.




*Törən'in gedişi...*

Burada bizim işimizin əsas qayəsi odur ki, türkün ünvanlarına, öz evinə öz Müqəddəs Kitabı gəlir. Başqa baxışların kitabları bu ünvanlardan çıxmalıdır. Prinsip budur. Türk millətinin qibləsi yaranmalıdır. Yaranır o. Öz qibləsi yaranır. Bütün onun başına gələn fəlakətlər, bütün onu üzü üstə qoyan gedişlər hamısı onun qibləsizliyindəndir. Onun üzünün olmamasındandır. Onun böyük mədəniyyətini yaradan dünyabaxışının olmamasındandır. Onun öz İnsanının olmamasındandır. Öz İnamının olmamasındandır, öz Peyğəmbərinin olmamasındandır. Öz böyük ziyalısının olmamasındandır. Belə böyük fəlakətlər elə şeylərdən gəlir. Mütləqə İnam Ocağı bunu yaradır əslində. Xalqın Müqəddəs Kitabını yaradır, xalqın Peyğəmbərini yaradır, bayrağını yaradır, Evladını yaradır, ziyalısını yaradır, ünvanını yaradır, qibləsini yaradır, müqəddəs Ziyarətgahını yaradır. Budur səninki. Öpülməyə layiq Müqəddəs torpağın, Başkəndin, Bakı şəhərin. Sənin qiblən budur. Bunu yaradır

öz ardıcıl prinsipləri ilə. Bayaq dedim, bizim heç enini, uzununu bilmədiymiz bir gediş vardı çox imkansız idik. Göyərti əkirdik ora *(həyətini göstərir. – **N.A.**).* Asif Atanın ölümündən sonra. Zarafat deyil. Heç yerdə ənənə yoxdur. Ruhaniyyat ənənəsi yoxdur. Məgər türkün ruhaniyyat ənənəsi var? Türkün harda olub ruhaniyyat ənənəsi. Nə Zərdüştə yiyə durdu, nə Tanrıçı baxışı bir sistem deyil. Səhər-səhər zəng edib Qəbələdən olan oğlan, nədi Şahin. Mənlə mübahisə eləyir. Tanrıçılıq belə, tanrıçılıq elə. Mən deyirəm nə deməkdir Tanrıçılıq. Yox e, böyük şeydir. Nədir, böyük şeydir? Hanı onun sistemi? Necə böyük şeydir ki, islam gəldi süpürdü, tulladı o tərəfə. Nə təhər böyük şeydi. Böyük şeyi yerindən tərpətmək olar?! Böyük şeyi yerindən dəbərtmək mümkün olmaz. Heç bir sistem deyil. Yaratmırsan, yarananı görmürsən. Gözün kordur. İçində yarananı görmürsən, qiymətləndirə bilmirsən, göylərə qaldıra bilmirsən. İçində yarananı gör. Onda sən böyük olacaqsan. Bilgə Xaqanın ətəyindən tuta bilmədin. Ona görə zəlil günə düşdün. Tonyukuk. Üçü birləşdi o vaxt. Tonyukuk, Bilgə Xaqan, Gültəkin. Onların üçünün hakimiyyəti dövründə böyük bir türk birliyi yaranmışdı. Onlar öldü, Türk birliyi də getdi. Niyə Türk birliyi getdi? Yoxuydu kitabı, yoxuydu dünyabaxışı, yoxuydu bayrağı, özününkü yoxuydu. Ona görə xalqı bir yerə yığan, başına toplayan hadisə olmadı. Ona görə indi Gültəkini türkün balalarından soruş, Gültəkini tanıyırsan? Yox. İmam Əlini tanıyırsan? Hə. İmam Hüseyn? Hə, göylərdə. Bilgəni heç tanımır da, o birini heç tanımır. Belə şeyləri də deməkdən qorxmaq lazım deyil. Ləyaqət vaxtıdır, qeyrət vaxtıdır. Ən əsası xüsusilə. Qonumunuz var, qonşunuz var. Qonumunuzda, qonşunuzda oruc tutan var, namaz qılan var, Quran saxlayan var. Özü bilər. Amma bilməlidir ki, sənin fərqli ünvanın var, sənin müqəddəs baxışın var. Öz Kitabın var. Qonşu onunla ölçü götürsün. Qonşun türk də ola bilər, qeyri-türk də. Onun dəxli yoxdur. Bax ona görə bizim ünvanımız... dediyim kimi iş görürük. Bayaq dedim, bütün bunları biz imkansızlıqdan yaratdıq. 3-5 adam göyərti əkirdik mənim həyətimdə. Göyərtini yığırıq, bağlayırıq, satırıq. Ordan gələn pulla yol pulu eləyirdik. Al bunu, Göylü, get indi filan yerə. Get görüş təşkil elə, get qəzet çıxart. Nurtəkin, Uluruh, get. Sonra Bakı Dövlət Universitetində təmir işləri gedirdi. Bir nəfər oğlan vardı, gedib onunla danışırdıq. Bizə iş ver. Mən də gedirəm orda şpaklyovka çəkirəm. Nə bilim nə. Heç bilmirəm ha. Şpaklyovka çəkmək bilmirdim. Təzə-təzə vaxtlarım idi. Uluruhdur, Safnurdur yanımda. Qızlar gəlib çörək gətirirdilər dalımızca. İşləyirdik orda. Ordan aldığımız pulla yol xərci, səfərə get, ora get.

***Safruh:*** Bayram xərci.

***Soylu Atalı:*** Bəli, bayramlar keçir. Bu millət üçün adət yarat, yol yarat. Həmin məsum uşaqlar. Yenə deyirəm, inanmırlar balaca ağıllar, uzağa baxa bilmirlər ki, bunu yarada bilməz. Bu nə eləyəcək Ruhaniyyat məsələsində. İnanmır. Bayaq dediyim kimi, gərək siyasətdə bazburut olsun. Altında qara maşın olsun, qara şüşəli, cangüdənlər, televiziya kanalı, mətbuatı olsun, o olsun, bu olsun. Hə, bu iş görür, nə iş görür o? Bu boyda siyasətçilər var, bu boyda şeyləri var. Adı nədi, cangüdəni olanları var, partiyası olanlar var, qəzeti olan var. Yazır səhərdən axşama, axşamdan səhərə. Hakimiyyətə də gəlir ha, neyləyir? Nəyi yaradır? Hanı yaratdığı? Hanı yaratdığı millət? Hanı yaratdığı vətən? Yurd? Ruhaniyyatı bunlar yaradacaq *(uşaqları göstərir. – **N.A.**).* Elmlə, siyasətlə qarışdırmaq olmaz Ruhaniyyatı. Ruhaniyyatı bunlar yaradacaq. Körpələr yaradacaq. Vermək lazımdır onlara bu Ruhaniyyatı, bu ənənəni.

İndi gəlin bu Bitiqlərimizi qəbul eləyək. Gəl bura, qardaş Safruh. Gücünüz çatır, gətirək, kömək eləyək *(Nurtəkin və Göylü Bitiqləri gətirirlər).*

***Safruh:*** İnam Atamızın Müqəddəs işi özünün ikinci böyük addımında xoş gəlmisən! Saray-Soylu kəndində sənin Ocağının indiki Yükümlüsü Soylunun evinə. Qoyun bura. Birinci Qutsal Bitiq – "Mütləq İnam".

***Soylu Atalı:*** Nəzərinizə yenə çatdırım. Deməli, Birinci Onluğun Birinci Müqəddəs Kitabı. Biz bunun adına Qutsal Bitiqlər deyirik. On üstəgəl üç. Yəni on əsas, üç yan əlavə Bitiq deyirik. Onluq – Atanın 45 Müqəddəs Kitabıdır. Əyləş, Türkel, əyləş. On Müqəddəs Kitab.




***Nurtəkin və Göylü Atalılar Qutsal Bitiqləri (Müqəddəs) Kitabları Özül üzərində Törənə təqdim edirlər.***

45 kitabı özündə daşıyır. 3 əlavə kitab Atanın siyasətə, ədəbiyyata, gedişata baxışlarını əks etdirən geniş tərkibdə əsərləridir. İndi bunlar 2 variantdadır. Bayaq dediyim kimi, əsasən bizim törənimiz keçirilir Türkün öz əlifbasına görə. Bizim Bitiqlər 2 variantda hazırlanıb. Türk abemizdə və latın abemizdə. Türk abesində ona görədir ki, daha doğrusu, latın abesində ona görədir ki, bu gün Türk variantını oxumaq çətinliyi var və latın abesiylə həm oxuyub, həm oxutmaq. Belə bir mərhələdir. Bunun adına keçidmi deyək, nə deyək. Ona görə də hər iki variantda hazırlanıb. Lakin törən, vurğulayıram yenidən Törən yalnız Türk variantına görə həyata keçirilir. Hər bir kəsin evinə latın qəbul eləməyə bilər, yalnız Türkü qəbul eləyə bilər, Türk abesiylə onu biz kecirəcəyik törən kimi. Çünki bizim əsas işimiz Türk millətinin kitabını onun öz əlifbasında öyrənməkdir. Latın yardımçıdır, bu gün üçün.

***Safruh:*** Bir dəqiqə gözlə. Mən ən qocaman Ocaqçı olduğum halda bir qaydaya əməl eləmədim. Mən Ataya səcdə ilə qatılmalıydım gedişə.

Mütləqim, Müqəddəsim, Peyğəmbərim İnam Ataya – Asif Ataya Ali Səcdəylə!

Saray-Soylu kəndində Soylunun evinə Müqəddəs Onluğumuzun qəbul törənində Safruhun iştirakı. Bayrağımızı öpürəm.

***Soylu Atalı:*** Hə, çox gözəl. Bu latın qrafikası ilə "Mütləqə İnam". Burada heç bir ön söz yoxdur. Əlavə heç nə yoxdur. Atanın şəkli yoxdur. Gələcəkdə bunlar nəşr olunacaq yəqin ki. Bir-bir nəşr olunacaq yəqin ki. Bir-bir nəşr olunacaq böyük tirajla. Onda yəqin ki, biz ön söz verəcəyik nəşrə. Ön söz verəcəyik, çünki təqdim eləmək lazımdır. Amma indi isə yoxdur və olmayacaq. Bunun yalnız sonunda Mütləqə İnam Ruhaniyyatının Qutsal Bəlgə, Ruhani Sənədi var. Mən elə yeri gəlmişkən onu oxuyum. Mən oxumalıyam onu.

***Safruh:*** Klassik bir Bəlgə.

***Soylu Atalı:*** Mən onu oxumalıyam. Onu oxuyum, məlum olsun.

Bizim millətimizin özünə, özümlüyünə, öz dəyərinə, öz kitabına münasibət ənənəsi yoxdur. Təbiidir ki, kitabı yoxuydu. Münasibət ənənəsi də yoxdu. Onun öz dəyərinə, öz böyüyünə, öz kitabına, öz Aydınına, öz vətəninə münasibət müqəddəsliyi olmalıdır, yaranmalıdır. Onun bir xətt olaraq belə bir ruhani Sənədlə, Qutsal Bəlgəylə biz təqdim eləyirik Atamıza.




Mütləqimiz, Müqəddəsimiz, Ulu Peyğəmbərimiz
İnam Ataya (Asif Ataya) Ali Səcdəylə!

## MÜTLƏQƏ İNAM RUHANIYYATI

### (Qutsal Bəlgə)

Türkün (ilk) Ruhaniyyat Ocağı – İnam Atanın (Asif Atanın) Mütləqə İnam Ocağı 30-ildə (Miladın 2008–2009-ili) Asif Ata İrsi'ndən özünün, ən uca ümumbəşəri ruhani dəyər kimi,

tapındığı hissəni "On Qutsal Bitiq və üç Yan Bitiq (qısaca Onluq)" adı altında nəşrə hazırladı. "Onluq" Atamızın 43 Müqəddəs Kitabını və 7 Müqəddəs Kəlamını özündə birləşdirir.

Bitiqlərin təsnifatı və sistemləşdirilməsi içlərindəki Kitabların Mütləqə İnam baxışında yerinə görə aparılmışdır; hər Bitiq Ata Təlimindəki məna ifadəsinə əsasən adlandırılmış, Ata Mətnlərinin bütövlüyü, ilkinliyi, məzmunu, dili, üslubu, cümlə quruluşu olduğu kimi saxlanılmışdır. İnam Ata İrsinə yönəlik bu prinsip həmişə və hər yerdə gözlənilməlidir. Bitiqlərin indi təqdim olunan quruluşu, biçimi, adları, sayı da toxunulmazdır.

Onluq (On Qutsal Bitiq) – hazırkı Mütləqə İnam Ocağı tərəfindən Mütləqə İnam Ruhaniyyatı – Ata Müqəddəsatı sayılır; Yan Bitiqlər (Əlavə Cildlər) – "Qutsal (Müqəddəs) İrs"ə daxil edilir, məzmunlarına görə Onluğa daxil edilmirlər, çünki Onluq Mütləqə İnam Dünyabaxışının Cövhərini və Meyarını birbaşa, Yan Bitiqlər isə onun ayrı-ayrı məqamlarını və dolayısı ilə ifadə edirlər. Bütövlükdə Ata Dilindən, Ata Qələmindən nə çıxıbsa, Mütləqə İnam Dünyabaxışının Qutsal İrsi sayılır, ancaq Onluğa daxil edilmir.

İrsin yiyəsi, qoruyucusu, sorumlusu İnam Atanın Mütləqə İnam Ocağıdır. İrslə bağlı bütün hüquqlar bu Ocağa məxsusdur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız var olsun!

**Soylu** (Ocaq Yükümlüsü) və
**Safruh ATALILAR**

*08 Köçəri Ayı, 30-il. Atakənd. İnam Evi.*

Bu – bizim Ruhani sənədimiz. İndi bundan başqa İlk İnam Evində Bitiqlərimizi zaman başqa bir Ruhani Sənəd də orda oxuduq. O Ruhani Sənəd də ondan ibarət idi ki, onlara, yəni Qutsal Bitiqlərimizə münasibət necə olmalıdır?! Qutsal Bitiqlərimiz (Müqəddəs Kitablarımız) bir odaya, ən səliqəli, təmiz bildiyimiz bir yerə qoyulur. Həmin odada heç vaxt ucadan danışılmır, çığırılmır, bağırılmır, əsəbiləşilmir, başqasının qəlbinə dəyilmir, yerli-yersiz zarafatlar edilmir, yəni insanlığa aid olmayan heç bir addım atılmır. İndi elədi ki, tutalım ki, bu odada *(durduğu otağı göstərirş – **N.A.**)* bəzən kimsə qəzəblənər, ana qəzəblənər balasına, bağırar, çığırar, artıq deyər, əksik deyər. Amma orada bu yolverilməzdir. Heç bir kitab, heç bir irs Türk üçün onun öz içində yaranandan ali ola bilməz. Ondan aşağıdır. Hər şey ondan aşağıdır. İndi bugünkü törənin gedişində yenə ümumi bir Ruhani Bəlgə yaratdıq. Bayaq mən vurğuladım ki, adətən dünyabaxışlarda, xüsusilə dinlərdə sonrakı mərhələlərdə çox əcaib, qəraib hadisələr baş verdi. Pirlər, əcinələr yarandı, günbəzlər yarandı, o yarandı, bu yarandı. Xalqın başına hər cür soğan doğranıldı, corab hörüldü, aldadıldı. İnsanı aldatmaq qədər aşağılıq yoxdur. Aşağı səviyyə yoxdur. Özümü saxlayammadım, hissə qapıldım istədim bir ağır ifadə də işlədim. Doğrudan da İnsanı saymamaq, onu aldatmaq çox pis şeydir. Yolverilməzdir. Bizim ünvanlarımız pir deyil. Bura pir-zad deyil. Bura yalnız xalqın, türk millətinin içində ruhaniyyat hadisəsinin təsdiqinə, kitablarının qəbuluna yardımçı olduğuna görə onun ləyaqəti sayğıyla anılır. Gələcək nəsillər üçün sayğıyla anılır. Əlavə bir səlahiyyəti yoxdur. Mən onu burda yazmışam, indi oxumaq istəyirəm.

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim
İnam Ataya – Asif Ataya Ali Səcdəylə!

**Ruhani Bəlgə**

Mütləqə İnam Ocağının Müqəddəs ənənələrindən biri – “Qutsal Bitiqlərin Ünvanlaşması”, – Ocaq tarixinin Qızıl Dövrü adlanır.

İlk İnam Evindən sonra yeni “Qutsal Bitiq Ünvanları” yaranır. (10+3). Qutsal Bitiqlər türk və latın qrafikalarında hazırlanaraq İnam Evlərində, Evladların və İnamçıların ünvanlarında Qutsal Törən keçirilərək Mütləqə İnam Ocağı tərəfindən qəbul olunur. İlk İnam Evində qəbul olunan Qutsal Bitiqlərə Münasibət Bəlgələrinin tələbləri “Bitiqləşən” ünvanlarda qüvvəyə minir.

Qutsal Bitiqlərin Qəbul Törəni türk abesi ilə yazılmış variantlara görə gerçəkləşdirilir.

Qutsal Bitiq Ünvanlarının yaranma prosesi – İnamın xalq tərəfindən bütöv, rəsmi qəbul olunmasına qədərki mərhələni əhatə edir. Bu mərhələdən sonra Qutsal Bitiqlərin toplandığı evlər “Qutsal Bitiq Ünvanı” sayılmır. “Sayılan” ünvanların isə əlavə imtiyazı olmur – “pirləşmir”, İnam Evinə bərabər tutulmur. Sadəcə bu ünvanların yurdumuzun ruhani özünəməxsusluğunun təsdiq olunmasına göstərdiyi ruhani xidmətə görə nəsillər tərəfindən sayğı ilə xatırlanır.

Türk Ulusunun Peyğəmbərinin öz Qutsal Bitiqləri ilə, öz ulusunun abesində xalqın evlərində ünvanlaşma dövrü – Ocaq Tarixinin Qızıl Dövrü.

Ocaq tarixinin Qızıl Dövrü Günəş Ayının 22-si, 31-il – Qutsal Bitiqlərin ilk İnam Evində Qəbul Törəninin tarixindən başlayır!

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!
Atamız var olsun!

**Ocaq Yükümlüsü Soylu Atalı**
*21 Qürub Ayı, 31-il. Saray-S.*




***Safruh Bitiqləri bir-bir götürüb,***
***O.Y.Soylu Atalıya təqdim edir.***

Hə, qardaş, davam eləyək.

***Safruh:*** İkinci Qutsal Bitiq – “Mütləqləşmək – Var olmaq”.

***Soylu Atalı:*** Mən bir daha bunları köynəkdən çıxartmıram. Hər ikisi, biri Türk variantıdır, biri latın qrafikasıdır. Yenə olduğu kimi – “Mütləqləşmək – Var olmaq”. Atanın ikinci kitabıdır. 45 kitab sırasında da ikinciydi, ayrıca da.

***Safruh:*** Üçüncü Qutsal Bitiq – “Anlam İnsaniliyi”.

***Soylu Atalı:*** “Anlam İnsaniliyi” adlı Qutsal Bitiyimizi qəbul edirik və onu Səcdəmizə qəbul edirik, daha doğrusu səcdəmizlə.

***Safruh:*** Dördüncü Qutsal Bitiq – “Görmək İnsaniliyi”.

***Soylu Atalı:*** Qəbul eləyirəm.

***Safruh:*** Beçinci Qutsal Bitiq – “Fəlsəfənin Təməli”.

***Soylu Atalı:*** Burada Asif Atanın Fəlsəfəyə bağlı və İnamın fəlsəfəsi ilə bağlı ciddi mövqeyi ortaya qoyulub. Olduqca ciddi. Ona görə burada uyğun kitablar bir yerdə sistemləşib və Fəlsəfənin Təməli adını daşıyır. Onu da vurğulayım ki, bu adları əsasən Safruh tərtib eləyib. Orada yalnız ikisinin adını mən vermişəm. Mütləqə İnam Ocağı onun tərtib elədiyi və verdiyi adları qəbul eləyir, doğru sayır və Atanın verdiyi adlar (ayrı-ayrı kitablarına) qüvvədə qalmaqla Atanın verdiyi adlar içindədir. Hər bir kitabın (qardaş, bir dəqiqə, üzr istəyirəm) kitabların içində, içərisi (mündəricatı) var?

***Safruh:*** Hə.

***Soylu Atalı:*** İçəri hissəsində “Fəlsəfənin təməli” İnam Ata. On Qutsal Bitiq. Burada iki kitab var – İnam Fəlsəfəsi. “İnam Fəlsəfəsi”ndə də “İnam Həqiqəti”, “Varlıq”, “İdrak”, “İnsan”, “Cəmiyyət”, “Din”, “İnam İdrakiliyi”. İkinci Kitab – “Təməl”. “Təməlsizlik”, “Dünyanın Təməli”, “Həyatın Təməli”, “İnsanın Təməli”, “Xalqın Təməli” və s. və i.a. İki kitabın içində olanlar orada öz əksini tapır. Bax, Asif Atanın qoyduğu ad budur: “İnam Fəlsəfəsi”, “Təməl”. Bunu biz sistemləşdirmişik, qoymuşuq “Fəlsəfənin Təməli”.

***Safruh:*** Altıncı Qutsal Bitiq “Qutsal Quruculuq”. “Qutsal Quruculuq” Bitiqi.

***Soylu Atalı:*** Müqəddəs Quruculuq. Burada insanın özüylədöyüş ənənəsi, sonra ictimai şərlə döyüş, daxili şərlə döyüş, xalqın ənənəsinin yaranması, xalqın özünün yaranmasının fəlsəfəsi, təlimi öz əksini tapır.

***Safruh:*** Yeddinci Qutsal Bitiq “Yetməli Olduğunuz”.

***Soylu Atalı:*** “Yetməli olduğunuz” nədir sualına çox önəmli cavab. Nəyə yetməliyik? Biz millət olaraq, bir insan olaraq, Bəşər olaraq nəyə yetməliyik?!

***Safruh:*** Səkkizinci Qutsal Bitiq “Özüllər Özülü”.

Doqquzuncu Qutsal Bitiq “İçdən Yaranma”.

***Soylu Atalı:*** “İçdən Yaranma”. O da səhv eləmirəmsə, özüylədöyüş məsələsidir. İnsanın özünü yaratması. Özünün yaratması, özünü yaratmasıyla dünyasını yaratması.

***Safruh:*** Onuncu Qutsal Bitiq “Hüquqdan Haqqa”.

***Soylu Atalı:*** Atanın fikri var, ideyası var. Din İnamla əvəz olunmalıdır. Dində yalan var. İnam yalansız olur. Mütləq İnam. Yalansız İnam. Ona görə din İnamla əvəz olunmalıdır. Siyasət Ruhaniyyatla əvəz olunmalıdır. Ona görə bunun adı “Hüquqdan Haqqa”. Burada Hüquq nədir, haqq nədir? Hüquq siyasətin oynadığı oyundur. Haqq İnsanilik deməkdir. Hüquq siyasət deməkdir. İnsanın hüququ. İnsan hüquq uydurur, İnsanın İnsanilik haqqı görünmür. O hüququn arxasına keçir. Ona görə Asif Ata hüquq tanımır, haqq tanıyır. Burada o öz əksini tapıb.

***Safruh:*** Onluğun Birinci Yan Bitiyi – “Ruhani Sənədlər”.

***Soylu Atalı:*** Bu Ruhani Sənədlərdə demək olar ki, Asif Atanın zaman-zaman Ocaq quruculuğu yönündən evladlarına verdiyi buyuruqlar, Ocağın quruculuğu yönündən yazdığı Ruhani Sənədlər. Eləcə də xalqın özünün, içinin yaranması, adətinin yaranması, ənənəsinin

yaranması. Başqa çalarları ifadə eləyən Ruhani Sənədləri daim yazırdı, işləyirdi. Bax, ən çox bu belə şeyləri özündə daşıyır. Məsələn, Ata-Evlad vəhdəti. Belə bir sənəd var. Məsələn, Sadiqimə. Məsələn, burda yazıb "Evlad yükü: Ata xalq çayına enərdi, Həqiqət tilovu atardı, Qeyrət balığı tutardı. Şər xalq çayını Ataya yasaq elədi. İndi Evlad Həqiqət tilovu atmalı, Qeyrət balığı tutmalıdır". (8-ci il).

Bu, sovetin qılıncının dalının qabağının kəsdiyi bir vaxtda idi. Ataya yasaq eləmişdilər hər şeyi. Məsələn, Safruha: Hadisələr kitabı hazırlayırsan. Orada əks olunur. Mərasimlərin, tarixi məğzi, nəticəsi, səfərlərin, tədbirlərin, görüşlərin, müsahibələrin, mühazirələrin tarixi, məğzi, nəticəsi. Cari Amal işlərinin məğzi. Nəticəsi, Ata hüzuruna gediş, adlanma, evladlanma əməlinin tarixi, məğzi, nəticəsi. Yenə 8-ci il.

Bu cür kərpic-kərpic Ata öz Ocağını, öz evladlarını, öz kitablarını, öz Bayrağını, Öz İnamını yaradıb. Kərpic-kərpic. Burada həmin Ruhani Sənədlər öz əksini tapıb.

***Safruh:*** Burada deyilənlər edilib.

***Soylu Atalı:*** Edilib. Sonra burada deyilənlər məsələsi bu günün qulağına uyğun səslənmir. Müəyyən illər keçəcək, müəyyən illər. Tövratı oxuyun. Tövratı oxuyursunuz, görürsünüz primitiv şeylərdir. Min ildir bəşəriyyət o Tövratı öyrənir, o üzünə çevirir, bu üzünə. Niyə? Çünki o Tövrat xalqı xilas elədi, yaratdı, qurdu. Halbuki o qədər primitiv şeylər var ki, amma o qurub, dəyərdir. Onu da görmək məsələsi. İndi burada yaranan, yazılan, deyilən, çəkilən zəhmətlər yalnız sabah oxuyarsan söz kimi görünər adama. Amma hamısı yaşanan ömürdür, zəhmətdir, əməkdir, əməldir, gedişdir, gərginlikdir – çox mühüm bir aqibətdir.

***Safruh:*** Onluğun ikinci Yan Bitiqi – "Yollaşan Aqibət".

***Soylu Atalı:*** "Yollaşan Aqibət". Burada Asif Atanın 45 kitabına daxil olan "Ömrüm-Günüm" kitabı var. "Ömrüm-Günüm" Ata özünün, belə deyim, tərcümeyi-halı kimi yazıb. Sonra Bədiiyyat. Yenə fəlsəfi tərcümeyi-halı kimi. Rübailər şəklində var. Sonra o biri hissələr var. Bir də belə deyək burada səhv eləmirəmsə, "Muğam Fəlsəfəsi" də buradadır.

***Safruh:*** Yox, yalnız "Bədiiyyat".

***Soylu Atalı:*** Eləmi, hə, "Bədiiyyat". Bu, Atanın ömrünün yaranması, özünü... Ata da birdən-birə ortaya çıxmayıb. Çox gərgin yaşaya-yaşaya o yaranıbdır, o özü kərpic-kərpic özünü qurubdur. İçəridən özüylə döyüşə-döyüşə, özünü döyə-döyə, etiraf eləyə-eləyə. Deyir, mən özümə "2" yazırdım. Qiymətləndirirdim, özümə "2" yazırdım. Özümü divara vururdum. Elə yaranıb və o daim o yaranış həm də yazılırdı, o öz ifadəsini tapıb burda. Bax, Türk xalqının Müqəddəs aqibəti, Müqəddəs aqibətinin özülüdür, əsasıdır.

***Safruh:*** Onluğun Üçüncü Yan Bitiqi "Həqiqətlər".

***Soylu Atalı:*** "Həqiqətlər". Burada Asif Atanın aforizm şəklində yazdığı bir çox məsələlərdir, o cümlədən hətta burda siyasəti də təhlil eləyir. Siyasəti də təhlil eləyir, dünyanın siyasətini, ölkənin siyasətini, hara aparırlar insanı, hara aparırlar ölkəni və s. o burada Həqiqətlər şəklində öz əksini tapıbdır. Bax, burda bu cür məsələn, belə bir həqiqət: "Mütləq Təzahür olmur. Bu səbəbdən də o var olmur. Nisbi Məna olmur. Bu səbəbdən də o yox olmur". Belə bir qısa aforizm. "Dəyişkənlik – Yoxluq. Həqiqət dəyişilsə Həqiqət olmaz. Dəyişkənlik Həqiqətin yoxluğudur" və s. Sonra məsələn, başqa bir yerdə deyək ki, "Qorbaçovşina çevrilmələri. Kapitalist Polşası, Rumıniyası, sosial-kapitalist SSRİ-si, Bolqarıstanı, Çexoslovakiyası, Almaniyası. Qeyri-kommunistləşən, Müflisləşən kommunist partiyaları". Qısa, yəni, Qorbaçovşina çevrilmələri. "Vəziyyət: Sosializ-kapitalizm təzadı diktatura, demokratiya təzadı ilə əvəz olunub. Bu baxımdan Kastro ilə Pinoçet arasında fərq aradan götürülür" və s. Vaxtilə mətbuatda çoxları çap olunub. Bu cür ardıcıl münasibət bildirilib, ardıcıl baxış ortaya qoyubdur. Kitabda da bu öz əksini tapıb. Beləliklə, bizim ünvanımıza bu gün Türk millətinin, ulusunun uca dəyəri, Müqəddəs Qutsal Bitiqi qəbul olunur. Bunu mən öz evimə qəbul eləyirəm. Öz evimdəkilər – Türkelə, Ruhtaya, analarına

ruhani əmanət kimi mən onu qəbul eləyirəm. Ruhani əmanət kimi. Onların ən böyük hadisələridir bu, onların varlığının əsasıdır bu, onların fəxridir bu evdə bunlar, onların ləyaqətidir. Onların hər şeyidir – onların keçmişidir, gələcəyidir, nənəsidir, babasıdır, atasıdır, anasıdır – hər şeyi...

"Anamı sevirəm. Amalı ondan çox sevirəm. Qardaşımı, bacımı, dostumu, yoldaşımı, evladımı sevirəm. Amalı ondan çox sevirəm. Bununla da atama, anama, evladıma, dostuma, filana, filana – sadiq qalıram". Çünki Amal onların gələcəyidir. Amal onların millət olmasıdır. Amal onların böyüməsidir, böyük olmasıdır, özünəməxsus olmasıdır. İnsan kimi yaşamasıdır Amal. Ona görə onların mənasını onlardan yüksək bilirəm. O deməkdir. Beləliklə, Qutsal Bitiqlərimiz mənim evimə qəbul olunur, müqəddəs və mübarək hadisə kimi Ocaq tarixinə yazılır. Bunun gedişatı (hələ söz deyəcəyik, söz yox). Bunun gedişatı Törənin gedişatı Türkel tərəfindən yazıya alınır, səsdən sözə çevrilir. Göylü tərəfindən bilgisayarda yazılır, qardaşımız Safruh tərəfindən yoxlanılır, redaktə, korrektə olunur və cildlənir. Nurtəkin tərəfindən cildlənir və həmin kitab hələlik bir nüsxə o qoyulur bu Bitiqlərimizin yanına burda. İnam Evindəki törənin ayrıca kitabı orda gedən gedişi əks etdirir. Daha da geniş idi o. İndi bundan sonra da kimin evində məncə indi daha real Ulusəs bacımızın evində görünür. Daha real, yaxın vaxtlarda gerçəkləşməsi törənin, yenə də deyirəm istisna hallar ola bilər indi deyək ki, rayondan Ocaqçılarımızdan gəlməyən olar. Eybi yoxdur, daha bunu nəzərə alırıq və burda elə qaçılmaz hadisə ola bilər ki, gəlməyə bilər Ocaqçılarımız. Bu elə bir məsələdir. Amma yenə də deyirəm maksimum dərəcədə gəlmək. Amaldaş amaldaşın yanında olmalıdır. Onun irsini müşahidə eləməlidir, onun çiyninə çiyin söykəməlidir. 3-5 adam da qonumdan-qonşudan kim olarsa, dəvət olunur şahid olsun. Xalqın nümayəndəsi bilsin ki, bura nə gəlir. Yəni bir tarixi hadisə kimi. Bir az artıq dəvət eləyərsiz özünüz bilərsiniz. Yeriniz olar artıq dəvət. Özünüz bilərsiniz. Mən dediyim odur ki, 3-5 adam qalır. Əsas məğz, mahiyyət törənin gerçəkləşməsidir. Qutsal Bitiqin ünvana qəbul olunmasıdır və onun Ocaq tarixinə bənd olmasıdır. İndi buyur, qardaş.

***Safruh:*** Asif Atanın böyük Ruhani əməyi gerçəkləşir, maddiləşir. Onun yurdunun içinə, adamlarının evlərinə gedir. Yurdunun içinə, adamlarının evlərinə gedir. İstəkli dinləyənlər, Asif Atanı məncə burada şəxs kimi məndən yaxşı tanıyan yoxdur. Amma yəqin ki, onun yaradıcılığını, dünyabaxışını, fəlsəfəsini, bədiiyyatını məndən yaxşı bilənlər, dəyərləndirənlər ola bilər. Asif Ata xalis, ayrıca, bütöv bir dünyabaxış yaradıb. Asif Ata birinci növbədə millətçi deyil. Birinci növbədə Asif Ata İnsançıdır, Bəşərçidir, sonra Türkçüdür, Millətçidir. Çünki Asif Ata Türk Dünyasından kənara çıxıb mən Peyğəmbərəm deyə bilər, mən Mütləqə İnam gətirmişəm deyə bilər. Onun prinsipləri budur və heç bir millət deyə bilməz ki, bu prinsiplər məqbul deyil. Deyə bilməz bu yalnız sənin Türk millətinə aiddir. Deyə bilməz onu. Ümumbəşərə aiddir. Yəni ki, Bəşərin keçmiş tarixində indi əlimizdə kitabı olan tarixində elə bir möhtəşəm şəxsiyyət yoxdur ki, onun boyu bizim Atamızın boyundan yüksək olsun. İdraki baxımdan insani ləyaqət baxımından və cəmiyyəti insani nizama qoymaq, onun qaydalarını müəyyən etmək baxımından Asif Atadan daha uca birisi yoxdur. Ucalar var. Konfutsi var. ... var, Budda var, başqa dinlərə başlanğıc verən, kitab verən insanlar var. Onları biz danmırıq, onları biz aşağılamırıq. Ancaq deyirik ki, Asif Ata belə bir şəxsiyyətdir. Belə bir gəlişdir. Belə bir insani zərurətdən yaranmışdır. Bu kitablar da onun yaradıcılığının sırf Mütləqə İnam Ruhaniyyatı ki, biz deyirik həmin hissəsini ifadə eləyən işdir. Atanın başqa əsərləri çoxdur. Ziyalı mühitimizin heyran olduğu və heç vaxt ona çata bilməyəcəyi ədəbi tənqidi var özünün yaratdığı. O ayrıdır. O ayrı irsdir. Bu isə Mütləqə İnam Ruhaniyyatının irsidir, bu saat Türkiyədə nə baş verirsə onu ordakılar yaxşı bilirlər. Bizim Türkiyədən nə dərəcədə asılı olduğumuzu da yəqin ki, bilirlər. Yəni bizim bir dövlət kimi, bir ölkə kimi, az-çox müstəqil bir vahid kimi Türkiyəsiz nə demək

olduğumuzu yəqin ki bilirik. Türkiyə orda qəribə hadisələrlə, faciəli hadisələrlə çalxanır və o hadisələrdə səbəblər elədir ki, türk milləti o səbəblərə qarşı özü peyvənd qoya bilmir. Məsələn, orada bir ədəbi çalış yaranıb. Mən televiziyadan gördüm. Sonra bir kürd danıştayı yaranıb, dövlət şurası yəqin. Başqa belə şeylər yaranıb. Türkiyə camaatı nə gözləyir, nəfəsini içinə çəkir ki, onda orda sözünü deyər. Orda sözünü deyir, deyəcək deyək ki, amma xalq deyə bilmir. Çünki xalqın kitabı yoxdur. O kitablar xalqı indiki vəziyyətə gətirir. Xalqın əlindəki əzbər bildiyi kitablar onu indiki millətsiz hala gətirir. Məhv eləmək, məhv olmaq planlarıdır, seçimlərdir cızılıb. İndi o sxemlərin cizgiləri getdikcə aydınlaşır. Soylu Tövratın adını çəkdi, mən çoxdan bu qənaətdəyim ki, əgər yəhudi deyilən qövm Tövrata yiyə durmasaydı, bu gün Tövrat olmayacaqdı. Və əgər o Tövrata yiyə olmasaydı, durmasaydı, bu gün yəhudi də olmayacaqdı. Mən hesab eləyirəm ki, baxmayaraq türk sayının ucsuz-bucaqlığına, əgər Türk soyu olmasa, özünü dərk eləməsə, qabağa durmasa, onun Atasının kitabı məhv olacaq. Əgər o öz Atasının kitabına yiyə dursa özü də xilas olacaq. Türk millətinin varlığına bu səbəb olmalıdır və ayaqda qalmağına səbəb olmalıdır və bunun mən dediyim kimi, bir möhtəşəm ucalığı da var ki, bunun içərisindən çıxır millətin var olma haqqı. O birbaşa ona vurğu eləmir. Bu qeyri-adi dərəcədə bəşəri və insani haraylardır. Qeyri-adi dərəcədə millət ona mindən biri, milyondan biri ona vaqif olsa, vaqif olandan sonra onun gücü artacaq. Fərdin gücü artacaq və toplumun gücü artacaq. İndi bizim gücümüz çoxdur. Amma biz o gücü bilmirik necə, nəyə sərf eləyək. Xalq bizim üçün dayaq deyil. Amma qabağa çıxanımız haqqında deyirlər ki, o xalqa söykənir. Asif Atanın da sözü var ki, xalqa söykənən xalqı dayaqsız qoyur. Özü dayaq olmalıdır, özü dağ olmalıdır. Xalq ona söykənməlidir. Xalq nədir? Çoxlu insandır da. Əkir, biçir, balıq tutur, traktor sürür, nə bilim elə. O birey deyil ki, güc deyil ki, ağıl gücü deyil ki axı. Traktor sürəni çağıranda sən ora getmirsən. Amma səni bir filosof çağırsa, səni Safruh çağıra bilsə gələcəksən. Minlərlə adam gələcək. Ona görə də xalqın çox az sayda oğlu, qızı bu Bitiqlərə yiyələnsin. Onda Türk xalqının xilasından danışmaq mümkün olacaq. Bunlar olandan sonra bizim baş kəndlərimizdə Türkiyə sözü oxunacaq minarələrdən. İnam evlərinin üstündən türkün ləyaqəti deyiləck. Onda türkün yerə-göyə sığmayan istedadları parlayacaq. Çünki onun qolunda, qanadında Mütləqə İnam Adında dünyabaxış var. Onun hər bir ifadəsindən bütöv bir sistem yarana bilər. Fəlsəfi sistem, bədii sistem, musiqidə sistem, rəssamlıqda, rəqsdə - hər şeydə yarana bilər. Onda bizim xarici ölkələrdəki səfirliklərmizdə məscid yox, İnam Evi tikiləcək. İnam Evi və orada sənin millətinin ləyaqətindən danışılacaq, gücündən danışılacaq. O da qarşısıalınmaz bir gücdür və yalnız qol gücü, silah gücü deyil. Türk xalqı əslində ləyaqət xalqıdır, at kimidir türk xalqı. O, Mütləqə İnam Ruhaniyyatıyla və fəlsəfəsiylə yaraqlansa biz ona xidmət eləyirik. Bir də mən indi bu toplanışa gəlirəm və burada mən Soylunu bir yana baxanda ləliyən görürəm. Və görürəm ki, onun böyüklüyünü anlamama var. Təəssüf ki, ona məişətimizdə rast gəldiyimiz özündən savadlı deyək ki, cavan kişi kimi baxılır. Əslində onun böyüklüyü çoxdur. Onun toplantısı belə olmamalıdır, onun toplantısında 2 cəmiyyət var, 2 toplum var. Bunun biri Ocağın toplumudur, biri Ocağın öz içinə çağırmaq istədiyi toplumun tək-tük nümyəndələridir. Bu iki toplum arasında gözə görünməyən dartışma gedir. Ocaq onları başa salmaq istəyir. O çətin alınır. Hər kəs öz cazibə mərkəzinə doğru dartınır. Ocaq onu güclə gətirir bura və Ocaq onu eləməzdi əgər Ocaq da özünə bir nə isə yaratmaq istəsə, bir qrup olsa, bir partiya üzvü olsa, bir qeyri-hökumət təşkilatı kimi bir şey olsa onda Ocağı qınamaq olar ki, sən nə istəyirsən? Amma bu həyəcan təbiidir. İnsanlığın gələcəyi üçün. Və orada mən şəxsən Safruh olaraq onu xüsusilə ona görə mən millətçiyəm ki, mən bilirəm millət bu kitaba yiyələnsə biz bəşəriyyətin murdar gedişinə dur deyə bilərik. Biz ermənilə ona deyə bilmərik dur. Başdan-ayağa hamısı bu kitabı özünün kitabını öyrənsin, əzbərləsin, onunla bəşəriyyətə deyə bilməz. Türk millətiylə deyə bilərsən.

Çünki bu dünyanın 5-3 yiyəsi var. Onun biri türkdür və o dünyaya yiyəlik eləməyən bir türkdür. Son 100 illəri biz götürəndə. Mən ona görə millətçiyəm ki, millət buna yiyələnsin, bu da millətə yiyələnsin ki, mən insanlara deyim ki, deyə bilim ki, bax insan həyatı elə deyil, belədir. Onun üçün qüdrətli birlik gərəkdir. Mən bugünkü toplantı üçün özümdə çoxlu qeydlər eləmişdim. Amma görürəm ki, biz özümüz deyirik. Amma insanlarımız alışıb yanmırlar. Ona görə də mən bu gün gətirdiklərimi də o közərtinin üstünə atsam o sönər, alovlanmaz. Ona görə elə bununla yetərlənirəm ki, Müqəddəs Kitablarımız ikinci ünvana gəlir. Əgər Asif Ata indi mən dediyim kimi və çox özüm yazmışam çox. O cür Asif Ata böyükdür və böyüklüyündə qalır. Heç kəs onun yanında yoxdur. Heç kəs ola bilməz. Atanın yanında qulun gərək. ... İndi Soylu qabağa durub. 12 ildir ki, Atadan sonra Ocaq yol gedir. Cürbəcür hadisələr olub Azərbaycanda. Demək olar ki, kitab-mitab oxuyanın hamısına aydındır, bəllidir. Amma burada bir ləyaqət var. O bəlli deyil. Çox az sayda insan böyük dünyanın cazibəsi və basqısı altında olmağına baxmayaraq, çox az sayda insan içindən idarə olunma ləyaqətinə çatıb. Öz içindən idarə olunur. Etikası da özündəndir, estetikası da özündəndir, hünəri də özündəndir, nizamı da özündəndir. Onu, o hünəri yarada bilib. O bütövlüyün qarantı Soyludur. İlk Ocaq Yükümlüsü, mənim hələ 10 il bundan qabaq dediyim tarixi şəxsiyyət Soylu Atalı. Bu gün onun evinə Mütləqə İnam Peyğəmbərinin Qutsal Onluğu, Müqəddəs Kitabı gəlir. Hesab eləyirəm ki, özünün çox etibarlı ünvanına gəlir. Təbrik eləyirəm səni, öpürəm səni.

***Soylu Atalı:*** Hə, var ol.

***Safruh:*** Atamız var olsun! Bayrağımızı öpürəm.

*(Əkbər Qoşalı və DGTYB-nin şairi Namiq Hacıheydərli getmək istəyirlər, işləri ilə bağlı)*

***Soylu Atalı:*** Hə, bizim zaman-zaman tədbirlərimizdə ayrı-ayrı vaxtlarda insanların bəzən qalxıb-enməsi, zəif əhval ... eləməsi, münasibət bəsləməsi, gəlməməsi, filan həmişə bu qardaşımızda – Safruhda bir çox hallarda haqlı olaraq ağrılarla qarşılanıbdır, indi yenə o müəyyən mənada bunu ağrıyla qarşılayır. Bu anlaşılandır, bu doğrudur. İçimizdə onun ağrısını da ifadə eləmək gərəkdir, onun fərəhini də. Yəni bu ağrı da bizim işimizin az olması, aşağı olması anlamı daşımır. O xalqa, gəl özünə yiyə dur ərkidir. Belə bir tələbdir, o ərkdir. Nə olursa olsun, əlbəttə, iş çox çətindir, Ocaqçıların nə heç bir vaxt nə qoltuğu əsa görməyib, nə də ümidi sazaq görməyib. Gərək də deyil. Çünki biz həqiqətçiyik. Biz bilirik ki, biz hansı yükün altındayıq. Biz bilirik ki, neyləyirik və neyləməliyik. Bunu çox gözəl bilirik. Ona görə də heç bir halda bizim işimzin tempi, sürəti azalmır, azalmayıb indiyə qədər. Daim yüksək səviyyədə gedir. Bundan sonra da yüksək səviyyədə gedəcək. ***Ocaqda 3-cə nəfər olanda belə o Ocaq olacaq, yüksək səviyyədə Ocaq olacaq.*** O vaxta qədər ki, doğrudan da xalq özünün xalq olduğunu başa düşüb, qəbul eləyəcək, özünün Müqəddəs Kitabını qəbul eləyəcək. Biz buna çalışacağıq axıra qədər, biz bu yolu gedirik, gedəcəyik, verəcəyik ona onu. Verəcəyik, nə vaxt verəcəyik? İllərin hansı ilində? Biz burada falçılıq aça bilmərik. Bizim işimizin nəticəsi bizim böyük fədakarlığımızdır, böyük zəhmətimizdir. Nəticə budur bizim üçün. Başqaları üçün nəticə o sonrakılardır. Amma bizim üçün nəticə bax budur. Özü də böyük nəticədir. Ona görə də ardıcıl, ardıcıl, ardıcıl haray demək, demək usanmadan, tükənmədən. Hər kəs özü-özünə həm də yiyə durmalıdır Ocağın içində. Xalqı özünə yiyə durmağa çağırmaq asan deyil. Özün özünə yiyə durmalısan. ***Özün özünə yiyə durmalısan ki, tükənməyəsən, bitməyəsən.*** Tükənmək təhlükəsi var. Ağır yüklərin altında, ağır gedişlərdə, ağır yoxuşlarda usanmaq təhlükəsi var. Qorumaq lazımdır ondan özünü. Asan deyil. Hər oğulun işi deyil ağır böyük yoxuşları aşsın o üzə. İndi kim aşa biləcəksə oğul da odur. Kim aşa biləcəksə, xilaskar da odur. Ona görə də elə getmək lazımdır ki, tükənməmək. O ki indi qardaşım deyir ki, bu törəni bir az başqa düşünmüşdüm. Belə olmamalıydı bir az başqa cür. Elə həmin tələbdir ki, tükənməmək. Ocaqçılar içində gərək tükənməsin, azalmasın. Həm də

hər bir kəsin özü eyforiya ilə yaşamağı doğru deyil. Hər kəs özü öz içində o ağrını da yaşamalıdır, o fərəhi də. Özü. Onda tutalım ki, Safruhun vurğuladığı, yaşadığı ağrı onda, onda yeni bir təəccüb hissi yaratmayacaq. O biləcək ki, bu ağrı var. Özü yaşamalıdır o ağrını. Eləcə də onun dediyim kimi fərəhini. Bax bu belə bir (həm də) Ocaq mühitinin fərdlərinin vəhdəti anlamı daşıyır. Ona görə mən çox istəyirəm Ocaqçıları həyat üzməsin, almasın, usanmasın. Bir də onları darıxdırmayaq, üzməyək. Elə köklənmək, elə sistem halında yaşamaq lazımdır ki, həyat maksimum almasın adamı. Maksimum almağa çalışır. Hər kəsi almağa çalışır. Başqa qayğılar motiv olmasın, ömrün məzmunu olmasın. Gərək bunu qırağa qoymaq, yeri gələndə qırağa tullamağı bacarmaq lazımdır. Doğrudan deyirəm. Qırağa atmağı bacarmaq lazımdır. Ona aludə olmaq, pərçimlənmək olmaz. Əgər biz pərçimlənəriksə, bizim səsimiz eşidilməyəcək. Hündürdən eşidilməyəcək səsimiz. Çox böyük gediş gedirik, çox uca gediş gedirik. Bir qom adamın getdiyi yol, gördüyü iş... Türkiyənin bu gün fiziki anlamda özünü saxlaya bildiyi güc nədirsə, Ruhaniyyat ondan beş artıq elə gücdür. Bir qomun apardığı ha. Onun qədrini bilmək lazımdır, onu düzgün qiymətləndirmək lazımdır. Düzgün görmək lazımdır. Hər şeyi yıxmaq olar, amma insanın içini yıxmaq olmaz. Mümkün deyil Ruhaniyyatda. O bitirsə orda əgər. O gələrsə onu tükəndirmək olar. Amma o bitərsə onu yıxmaq çətindir. İndi yenə bu Müqəddəs günümüzdə, bu Müqəddəs törənimizdə söz demək üçün mən istəyirəm qardaşımız, Ruhdaş qardaşımız buyursun bir kəlmə, beş kəlmə nə sözü varsa desin.

***Qəşəm Ruhdaş:*** On Müqəddəs Ktabın Soylu Ocağında ünvanlaşmasını mən təbrik eləyirəm. Bu doğrudan da fərəhli bir gündür. Bizim Bitiqlərimiz bu ünvana köçməsi və burda əbədiyyat tapması. Alqışlayıram. Balacalar üçün yəqin ki, gələcəkdə böyük bir fərəhdir, böyük bir hadisədir. Qısaca onu demək istəyirəm ki, bəlkə də İşıqlı qardaşım, başqaları siz özünüz bilərsiniz, “Kredo” qəzetinin baş redaktoru Əlirza Xələflinin kitabı çıxıb – “Meyar” kitabı. Orda həm Asif Atadan epiqraf veribdir – “Milli olmayan bəşəri ola biıməz”. Özü də deyəsən Tofiq Hacıyev barədə yazdığı. Bir də ki, 2 səhifəlik Asif Atanın özü haqqında şəkliylə o “Meyar” kitabında veribdir. Mən elə görüm imkan olsa, o kitabı alıb Ocağa bağışlayaram. Bir daha təbrik eləyirəm.

***Soylu Atalı:*** Çox sağ olun. Buyur qardaş, İşıqlı.

***İşıqlı:*** Mütləqim, Müqəddəsim, Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Bayrağımızı öpürəm.

Bu gün biz Ocaq Yükümlüsü Soylu Atalının yaşadığı evdə onun evinə Mütləqə İnam Ruhaniyyatı Qutsal Onluğun qəbul törəninə yığışmışıq. Şəxsən mənim üçün bir Amaldaş və milli anlamda bir soydaş olaraq türk kimliyinə yiyə durmaq baxımından bu hadisə önəmli bir əhəmiyyət daşıyır. Biz Günəş Ayının 22-də İnam evində Qutsal Onluğu və 3 Yan Bitiqi təqdim elədik. Özümüzə həm də təqdim elədik, həm də Azərbaycan ictimaiyyətinə bunu təqdim elədik. Bu barədə danışıldı, yazıldı və qəzetdə bir neçə ünvanda bu işıq üzü gördü. Yaxşı da təsir yaratdı. O zaman adamların sifətindəki tərəddüd qarışıq həyəcanları mən müşahidə elədim. Həm İnam Evində, həm də sonrakı məqamlarda. Bir tərəfdən Atanın fiziki yoxluğundan sonrakı dönəmdə baş verən bu hadisələr, Atanın irsinin bu dərəcədə möhtəşəmliyi, bundan savayı isə bu irsin son dərəcə ləyaqətlə təqdimi, adamların ağlında olmazın heyrət ahəngi yaratmışdı. İnanın ki, burda mən şəxsi müşahidəmi artırmaq fikrində deyiləm, xüsusi bir Amerika da açmıram. Çünki bunu hər bir kəs müşahidə elədi belə. Sadəcə mən həmin duyğuları öz anladığım, duyduğum halı ifadə eləyirəm. Bu o deməkdir ki, Türk xalqının öz içərisində özgəliyə yüz illər boyunca öyrəşmiş aydınlarımızın ağlında belə, bunların içərisində bir neçə nəfər onlarla ləyaqətli aydınları çıxmaq şərtilə, bizim Ocaq dostlarımızı çıxmaq şərtilə ki, şübhəsiz belə ənənə var bu gün və onlar Asif Atanın böyüklüyünü, Müqəddəsliyini, yaratdığı Müqəddəsatın, Ocağımızın gedişlərini çox gözəl

görürlər, dəyərləndirirlər, bununla fəxr eləyirlər. Bu bizim üçün ləyaqətli bir güvənc məqamlarımızdandır. Biz bunları yüksək dəyərləndiririk. Amma ümumən Azərbaycan aydınının ağlında Müqəddəs Kitablı olmaq, Müqəddəs yollu olmaq, öz içindən yaranmaq ənənəsinin necə bir xüsusi sistem əsasında yaranması, yaşanması göz qabağındadır. Bu o deməkdir ki, illərlə atılan addımlar hədər getməyibdir. İllərlə çəkilən zəhmətlər boşuna getməyib. O bu gün bəhrə verməkdədir. Yəni bu ən başlıcası o deməkdir ki, Asif Atanın Müqəddəs Kitablı xalqı Ocağının şəxsində yaranır, mütləq ruhani qurumun ahəngi bütünlüklə sistemli şəkildə yeriyir və Bakı göylərdədir. Ocağın ruhani uçuşu göz qabağındadır. Mütləq kitablı olmaq həm də xalqın Mütləq İnam Ruhlu yaşayan insanların yetişməsi deməkdir. Bu o deməkdir ki, Asif Atanın – İnam Atanın yazdıqları sadəcə bir söz deyil, bir ideologiya deyil. İdeologiyadan artıq olan bir dünyabaxışdır, sistemdir. Bu ömürlər yaradır, insanların halını xəlqi təməl üstə yaradır, kökləyir. Mən uzağa getmirəm. Öz şəxsimdən danışıram ki, əgər Asif Atanın İnamı olmasaydı, mən sıradan bir Azərbaycanın deyək yarıoxumuş, yarı tutalım zamançı obrazlı deyirəm, yarı Şərqçi. Bir ortabab adam olacaqdım. Müəyyən cəhət tutalım musiqiyə meyillilik, tutalım tayfaçı əhvalı. Bir az aşkara çıxacaqdı. Başqa bir cəhəti özümdə aşkarladım. Hə, o da bir aşkara çıxdı. Filankəsin təsiri ilə ondan bir qapmaq, ondan bir təsirlənmə. Yəni eklektik bir adam olacaqdım. Amma İnam Atanın Müqəddəsatı, Ocağı mənim qarşıma qoyduğu yön, tələb milli əhvalımı yaradır. Bəşəriliyimi təsdiq eləyirəm bununla. Mən nəfəsimi Atanın sözündən alıram. Ağlımda olan ömrümü, hər addımını, hər məqamını əqidə üçün yaşayan bir Türk insanının, Türk Peyğəmbərinin dediyi əsasda yaşayıram və xoşbəxt oluram. O xoşbəxtliyi mən soraq kimi doğmalarıma yetirmişəm, ailəmə gətirmişəm o sorağı. Yəni burda bir türkün konkret olaraq Asif Ata – İnam Ata İnamının, onun Müqəddəsatının, Ocağının təsirinin yerişini mən sizə ifadə eləmək istəyərdim. Amma bütövlükdə isə Ocaq əhvalı bir hərəkatdır, Ruhani bir hərəkatdır və onlarla insanın içində, Ocaqdan gedənlərin içində belə son dərəcə ciddi təsirlər var. Onlar getsələr belə, Atanın təsiri onların içindədir. Bu gün nə qədər peşman sifətlər görürük biz. Düzdür, etriaf eləmək çətin məsələdir. Ancaq bu gün Asif Atanın varlığından, yəni əbədi, ruhani ömründən savayı şübhəsiz insanın müəyyən bir doğum, ölüm tarixi olur. Asif Atanın yaratdığı ömür mütləq bir tamlığa çatdı. Ondan sonrakı dönəmdə Safruh qardaşım 12 il ərzində Soylu qardaşımızın hünərli yerişlərindən danışdı. Həmin bu hünərli yerişlər Ocağın doğrudan da ayaqda qalmasını və Atanın dediyi tələbdə əbədi yüksəlməsini təmin elədi. Bu bir təməl işidir. Atanın cismani yoxluğundan, Atanın vəfatından sonra misilsiz qəhrəmanlıq işidir. Mən qardaşım haqqında bir neçə dəfə qənaətlərimi demişəm və onun varlığıyla öyündüyümü dilə gətirmişəm. Bu mənim üçün ağlımın çatdığı, bu mənim üçün ləyaqətimin çatdığı və dərk elədiyim, Amal vəhdətini dərk elədiyim bir qənaətimdir. Habelə yeri gəlmişkən deyim ki, Safruh qardaşımın da ləyaqətiylə mən həmişə öyünmüşəm və Safruhla Soylunun vəhdətinin Ocağa necə böyük bir Ruhani güc olduğunu bu 12 il müddətində mən çox gözəl anlamışam. Ümumən Ocaqçıların arasındakı vəhdət bir-birimizi dərindən duymağımız və şübhəsiz ki, bu birdən-birə gəlib indiki mərhələyə çatmayıb, bu məqamda Ocağa Asif Atanın yaratdığı irsə yiyəlik duyğularımızı ömrümüzdə gerçəkləşdirmək səylərimiz elə-belə yaranmayıb. Addım-addım yol gəlmişik. Atanın təbirincə desək, dişlə, dırnaqla o halı yaratmaq, münasibət yaratmaq çox çətin məsələdir. Bir-birini qəbul eləmək çox çətin məsələdir. Adətən siyasətdə bunu müxtəlif cür deyirlər, siyasətdə aşkardır. Amma ruhaniyyatda daxili, insani yol getmək. Bir başqası səndən ruhani boyu yüksəkdirsə onu anlamaq, onu dəyərləndirmək. Bu Asif Atanın – İnam Atanın ölçüsü səviyyəsində qəbul eləmək çətin məsələdir və şübhəsiz ki, burda İnam Ataya – Asif Ataya münasibət bizim üçün Əzəli, Əbədi, Sonsuz, Kamil bir tələbdir və bugün Soylu Atalının evinə Qutsal Onluğun qəbulu törəni bu mənada həmin bu

münasibətlərin Ata irsinə yiyəlik duyğusunun təsdiqi kimi meydana çıxır. Azərbaycanda Asif Atanın – İnam Atanın Mütləqə İnam Ocağının yerişinin, uçuşunun mən deyərdim təsdiqi kimi meydana çıxır. Biz evlərimizə Qutsal Onluqları təqdim eləməklə, belə ciddi törənlər keçirməklə doğrudan da dini dışlayırıq. Hər cür balaça ənənələri, baxmayaraq ki, ənənənin mahiyyətində milli xəlqilik var, onu çox urvatdan salıblar. Hər cür balaca baxışlara yox deyirik. Bu gün xalqın yönü çox qarışıqdır. Camaat cərgəsi var. Toplumda və əslində xalqı tam mənasıyla Asif Atanın Mütləqə İnam Ocağı ifadə eləyir. Bütövlükdə Türk ulusunun mahiyyətini Asif Atanın Mütləqə İnam Ocağı ifadə eləyir. Bu gün çoxlu qarışıq təsəvvürlər, övliyalara, pirlərə sitayişlər yaranıb. Ayrı-ayrı adamlara sitayişlər. Görücü, baxıcı cəfəngiyyatı, siyasətlərin kultlaşdırılması. Bütün bunlar bizim birsifətliliyimizə qarşıdır. Bütün bunlar bizim müqəddəs kitablı olmağımızın qarşısında çox ciddi maneələr olur. Əgər biz Müqəddəs kitabla öz içimizi yaradırıqsa, onlar təbii olaraq yox olacaqlar və bu direniş şəxsən mənim içimdə tələb kimi, ağac kimi bitməyə başlayır. Mən özümü haçan güclü hiss eləyirəm? Mən özümü o zaman güclü hesab eləyirəm ki, Amaldaşım güclüdür. Amaldaşım məndən də güclüdür. Mən bunu ruhuma çəkirəm, özümü möhtəşəm hiss eləyirəm. Çünki bilirəm ki, bu bir siyasətçiyə arxalanmaq deyil. Bu ruhaniyyatçının ruhaniyyatçıya söykənməsi və nəyin əsasında söykənməsidir. Mütləqə İnam əsasında birliyin yaranmasıdır. Mənim arzum, həm də qardaşım Yolruhun arzusudur bizim də, İşıqlı və Yolruh qardaşların evində də İnam Evi guşəsinin qarşısında, “İnam Evi” guşəsində belə bir ciddi bir törənin keçirilməsi uzaqda olmayacaq. Bu mərhələ-mərhələ şübhəsiz belə bir ruhani növbələşmə yaranır, təbii olaraq və həmin bu Qutsal kitabların da, Qutsal Onluğun bizim evə də gedəcəyi yəni bütöv bir yerdə bizim İnam Evi Guşəsini bəzəyəcəyi gün uzaqda deyil. Bu gün bizim İnam Evi guşəsində Atanın əksər kitabları var. Amma bu biçimdə olması şəxsən mənim və Yolruhun Ocaqçı olaraq ən böyük arzumuzdur. Belə bir məqam, mərhələ mütləq olacaq. Mən belə bir uca gün münasibətiylə uca qardaşım Soylu Atalını təbrik eləyirəm. Onun fərəhinə fərəhləndiyimi ifadə eləyirəm. Qardaşımı bağrıma basıram.

***Soylu Atalı:*** Hə, var ol, qardaş.

***İşıqlı:*** Mən belə bir uca gündə istəyirəm ki, Müqəddəs Kitablarımızdan birini öpəm, gözümün üstünə qoyam.

***Safruh:*** Bayaq yadımdan çıxdı. Adamlar da burdaykən onun.....

***Soylu Atalı:*** Növbəti qəbulda.

***İşıqlı:*** Sonda Bayrağımıza Səcdə eləyirəm. Atamız var olsun! Bayrağımızı öpürəm.

***Soylu Atalı:*** “Bayrağımızı öpürəm, Atamıza Səcdə eləyirəm”, demək doğrudur.

***İşıqlı:*** Atamıza Səcdə eləyirəm. Bayrağımızı öpürəm. İndi problem qalmadı.

***Soylu Atalı:*** Hə, bu doğma bir düzəliş. Bayrağa Səcdə qılınmır, Ataya Səcdə qılınır. Bayrağı öpürük. Ata rəmzimizdir ona görə.

İndi bizim Bitiqlərimizin ərsəyə gəlməsi bir neçə ildən sonra bizim özümüzə yaxşı çatacaq ki, bu nə deməkdir. Hələ bizə tam çatmır. Yəni nə mənada çatmır? Onun fərəhinin böyüklüyü elə bil ki, ağlımıza çatmır. Təbiidir ha. Adam işin içində olanda çatmır ki ona. Niyə? Bu kitablar hansı zəhmətlə il ərzində necə başa gəlib. Burada Göylünün, Safruhun, Nurtəkinin misilsiz hünəri oldu. Misilsiz. Mən bunları keçən birinci İnam Evi, ilk İnam Evindəki Qutsal törənimizdə mən bunu dedim. İndi mən bunu deməliyəm və hər bir törəndə mən bunu deməliyəm. Bu bəlli olmalıdır. Bu misilsiz hünərdir. Mən onu yalnız misilsiz və hünər sözündən dilə gətirirəm. Ancaq onun nə demək olduğunu isə bir-bir çözüb araşdırb öyrənsək görərik ki, o bu sözə sığmayan bir şeydir. İl ərzində bu böyük zəhmətdir. Əslində adını çəkdiyim şəxslərin mən yazmışam, bunu, adını çəkdiyim şəxslərin bu cür zəhmətləri baxmayaraq ki, mən Atanın böyük zəhmətini bilirəm, Atanın böyük zəhməti qarşısında mənim həmişə əlimin arxası yerdə. Bizim hər birimizin. Burda Atanın adının qabağında

bizim qorxumuz məsələsi deyil. Çünki doğrudan da Ata böyük zəhmət çəkib. Elə böyük zəhmət çəkib ki, onu heç ümumiyyətlə sözə sığdırmaq mümkün deyil. O mənada yəni ənənəvi ləbbeykçilər kimi ki, boy Atanın qabağında biz elə dedik, belə dedik. Belə qorxu məsələsi deyil. Sadəcə həqiqətən onu görmək məsələsidir. Biz bilirik o nədir. Ancaq bunların ərsəyə gəlməsi məsələsi, mən bunu yazmışam, əslində Türk Ulusunun içinə böyük əməyin gəlişi, o dalğanın başlanması məsələsidir. Təməli bir daha vurğulayıram onun Peyğəmbəri olmaqla. Bayaq Safruh dedi mən təkrar eləmək istəmirəm geniş. Peyğəmbərin arxasınca belə bir böyük əmək dalğası olmasaydı, Peyğəmbərin əməyi havaya gedəsiydi axı. Ona görə bu əmək o dalğanı yaradır artıq. Təməldən qaynaqlanan dalğa, böyük bir dalğa. Qutsal Bitiqlərin ərsəyə gəlməsi, dediyim kimi, bu cür ciddi bir hadisə oldu. Ocaq Yükümlüsünün evinə bu Bitiqlərin hazırlanması, yəni o, ilkin olaraq çəkilən zəhmətlərdən sonrakı yenidən kitab halında nəşr olunması, cildlənməsi bunlar demək olar ki, üzünün tikilməsi, üzünün yəni köynəyinin tikilməsi Üstünün əməyidir. Yerdə qalan zəhmətlər əsasən Göylünün ləyaqətidir, Göylünün zəhmətidir. Ona görə bugünkü günümüzdə mən Atamızın adından Göylünün bu əməyini təqdir eləyirəm və onun ləyaqətini Ocaq tarixinin səhifəsi sayıram, Ocağımız qarşısında onun ləyaqətini təqdir eləyirəm. Eyni zamanda Üstünün əməyini mən təqdir eləyirəm. Çox qısa müddətdə, çox ləyaqətlə onu hazırladı. Çox da gözəl alınıb, qəşəng alınıb. Özü mən burda yalnız bucığazın pulunu vermişəm. Özü gedib, alıb, gətirib eləyib tikibdir, hazırlayıb gətirib bunu qoymuşam. Bu, Ocağın içində çəkilən bu əməklər, bu zəhmətlər böyük dalğadır. Həmin böyük əmək dalğasıdır. Ruhani əmək dalğası. İndi bu münasibətlə də Göylü buyursun, sözü varsa desin.

***Göylü:*** Sözüm yoxdur.

***Soylu Atalı:*** Sözün yoxdur, Bayrağımızı öp heç olmazsa. "Sözüm yoxdur" sözü olmasın. Əgər Ocaq Evladının adı çəkilirsə, ənənə yaxşı şeydir. Ruhaniyyat məsələsidir. Adı çəkilirsə, o sadəcə yerində sözüm yoxdur deyib qurcalanmasın. Sözüm yoxdur, onda gəlirsən Bayrağımızı öpürsən. Bir kəlmə təbrik eləyib.

***Safruh:*** Və deyirsən ki əməyim sənə halaldır.

*(Soylu və Safruh gülürlər)*

***Soylu Atalı:*** Yaxşı, Ulusəs.

***Ulusəs:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Mən fərəhliyəm bu gün. Çox sevinirəm doğrudan qəlbən sevinirəm bugünkü hadisəylə, bugünkü törənlə. Bu evə bugün törən keçirildi və Müqəddəs Kitablar bu evdə ünvanlaşdı. Bir tərəfdən ona görə ki, bu evdə 3 oğul yetişir, 3 türk oğlu yetişir, 3 türk Ocaqçısı yetişir, 3 türk insanı yetişir. Doğrudan da elə bu ev ona layiqdir ki, birinci olaraq hələ bu evə gəlib bu kitablar.

***Soylu Atalı:*** Birinci olaraq İnam Evinə.

***Ulusəs:*** İnam Evindən sonra da. Ünvanlaşan ev kimi. Doğrudan da böyük bir hadisədir. Mən böyük sözlər tapa bilmirəm. Doğrudan da böyük hadisədir bu. Mən bir şey də istəyirdim, yəni bu cür biz istəyirəm ki, bir türk kişisinin də rəsmi bu evdə ünvanlaşsın. Bu kitabların yanında. Mən hədiyyə olaraq bunu sizə vermək istəyirəm. Nəriman Türkiyədən gətirib. *(Ulusəs Atatürkün rəsmini Soyluya təqdim edir).*

***Soylu Atalı:*** Hə, çox gözəl. Biz bu kişini çox sevirik, Atatürkü biz çox sevirik. Onu biz misilsiz hadisə hesab eləyirik – türk həyatında, bəşər tarixində və bunu bu evimizdə Qutsal Bitiqlərimizin aşağısında qoyacağıq. Çünki Qutsal Bitiqlərimiz hər kəsdən, hər şeydən yüksəkdədir.

***Ulusəs:*** Aydındır.

***Soylu Atalı:*** Hə, Qutsal Bitiqlərimiz. Belə bir az pis çıxmasın. Bayaq mən bir fikir dedim.

***Ulusəs:*** Hədiyyə istəyirdim ki, bu Törənə bir hədiyyə gəlsin, şirinlik gəlsin. O mənada.

***Soylu Atalı:*** Çox gözəl, yaxşı elədin. Çox təşəkkür eləyirəm hədiyyənə görə. Hətta bayaq mən dedim ki, bu kitablar müəllif kitabı deyil. Asif Ata bir şəxs olaraq ha, Asif Atanın özü bir şəxs olaraq əgər biz onu İnamdan ayrı bir şəxs kimi götürsək, şəxs kimi o da bu Bitiqlərdən aşağıdadır. Əslində. Amma biz indi Asif Atanı Bitiqlərdən ayırmırıq, İnamdan ayırmırıq. Onu vəhdətdə götürürük. Ona görə də deyirik ki, Atatürk bunlardan aşağıdadır.




*Ulusəs duyğularını söylərkən...*

***Ulusəs:*** Soylu, mən istəyirəm ki, Atatürk sevinsin. Atatürk sevinsin ki, böyük bir İnam gəlib.

***Soylu Atalı:*** Bəli, sənin hədiyyəni mən şövqlə, sevinclə qəbul eləyirəm. Mən vaxtilə...

Onda sən zəhmət olmasa Bayrağımızı öp. Bir vurğu eləmək istəyirəm.

Hə, sağ olsun. Nərimana mənim adımdan sağ olumu çatdır. Mən bəzən deyirəm. Atatürkü bizi anlamayan, bilməyən adamlar bizim Atatürkü aşağılamağımız kimi anlaya bilərlər. Qətiyyən elə deyil və mən bunu nümayişkaranə demirəm. Atatürkü Atadan aşağıda belə. Bunu insanlarımızın ağlına yazmaq üçün deyirəm. Bilsinlər ki, əslində bu gəliş Atatürkün xilasıdır, Atatürkün başının bayrağıdır. Bayrağıdır Atatürkün. Atatürkün ona görə bayrağıdır ki, Atatürk xilas olur. Atatürkü yıxırlar. Əgər Türk ulusu bunu qəbul eləyəcəksə, Atatürk xilas olacaq. O mənada. Yoxsa mən burada Asif Atayla Atatürkü belə bir aşağı-yuxarı bir şey eləmək istəmirəm. Belə şeylər insanlarımızın ağlına gəlməməlidir. Çünki mən çox gözəl bilirəm ki, bu kişinin dəyəri nədir. Ona görə ağıllarına gəlməməlidir və bu baxımından mən deyəndə yarızarafat, yarıciddi deyəndə, sonra Ulusəs bacımız elə hesab

eləməsin ki, mən onun hədiyyəsini aşağı hesab eləyirəm. Elə hesab eləmirəm. Onu vurğulamaqla ha. O anlama gəlmir. Əsas mənə, mənim üçün hədiyyədən də üstün Ulusəsin öz qəlbidir, öz ürəyidir. Öz ürəyinin hədiyyəsidir. Odur mənim üçün əziz.

Yolruh, sözün varmı?

***Yolruh:*** Bir kəlmə.

***Soylu Atalı:*** Hə, buyur.

***Yolruh:*** Sözümə Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim İnam Atanın adına Səcdəylə başlayıram. Bayrağımızı öpürəm.

Bü gün münasibətilə uca qardaşım Soylunu təbrik eləyirəm.

***Soylu Atalı:*** Var ol.

***Yolruh:*** Böyük hadisədir. İşıqlının dediyi kimi, bizim istəyimizdir ki, evimizə gəlsin. Əsas məsələ bu kitabların evə gələndən sonra həmin deyilən qaydaya uyğun yaşamaqdır. Yəni doğrudan da kitablar özü bir məsuliyyət yaradır insanda. Bu evdə müqəddəs kitab var. Kitablar bu formaya, biçimə düşməzdən öncə də yəni bu evdə var. Təbii. Ancaq biri də var belə törənləşmiş şəkildə kitablar gəlir və biz artıq deyirik ki, qanun şəklində bu kitablara qarşı necə davranmalıdır, necə kitaba münasibət bəslənməlidir. Bunun özü çox böyük bir əslində həmin müqəddəs ömrün evdəkiləri belə deyək müqəddəslik üstündə ömrünün başlanmasının bəlkə də özülüdür. Doğrudan da bu kitablara xüsusi bir münasibət yəni istəyirlər. Məsələn, mən bu duyğunu bir müddət öncə deyirdim ki, mənim əynimdə ruhani paltar olanda doğrudan da mən özümü bir ruhani insan kimi daha yaxşı hiss eləyərəm. Özümlə bir. İnsan onu hiss eləyir. Lap paltardan da hiss eləyir ki, məsələn o paltar ona verə bilir. Nə bilim o mühit ona verə bilir. Tək qaldığı o otaq ruhaniliyi ona verə bilir. Ya anladır ki, belədir, doğrudan belədir. Yəni mənim dediyim odur ki, o kitablar o havanı gətirəcəklər. O kitablar o havanı yaradacaqlar və təbii ki, bunu hər birimiz eləməliyik. O barədə qardaşım Safruh deyir ki, məsələn, İnam gələndən sonra bizim başqa ölkələrdəki səfirliklərimiz orada İnam Evi tikdirəcək, orda Türkü təmsil eləyəcək. Təkcə türkü yox, mən düşündüm. Çünki bayaq siz dediniz ki, Asif Ata bəşərə çıxanda deyər ki, mən Bəşər Peyğəmbəriyəm. Həmin İnam Evi bütün bəşəri təmsil eləyəcək. Artıq başqa dinlər olmayacaq ki, desinlər ki, mən də burada bir dənə İnam var. İnam bütün insanlıq üçün gəlib. Həmin bütün insanlar orada girib İnam Evində özlərinin İnam Evində ola bilər ki, özlərinin öz ibadətlərini eləyə bilərlər. Yəni bu bütün bəşəri bir şeydir. Onu təkcə bir türklə bağlaya bilmərik. Dünən belə bir şey dedilər. Deyir ki, Danimarka müsəlmanlara icazə verir ki, orda məscid tikilsin. İlk dəfə bunu Türkiyə səfiri tikəcək orda bir. Gör Türkiyə gedib neyləyir. Sonrakı məsələ bayaq yenə də mənim Safruh qardaşımın çıxışını deyir ki, Atanın əgər Türk burdan yapışmasa doğrudan da bu məhv ola bilər. Ata da gedə bilər. Bax mən özüm də belə düşüncələrim olur hərdən ki məsələn necə olacaq. Atanın özünün də dediyi kimi hərdən Ata da həmişə yox, mərasimdə deyir ki, görəsən bizim sonumuz necə olacaq? Mənə elə gəlir ki, Asif Atanın dediyi o əbədi sabahlar artıq başlayıb. Əbədi sabahlar mənimdir. O başlayıb, doğrudan başlayıb. Nə üçün? Çünki Ata əgər özünün Peyğəmbərini təsdiqini bütünlüklə görməsəydi bu işlər keçməzdi. Mümkün olmazdı. Mən buna inanmıram. O deyərdi ki, qoy mən başlayım məsələn, tutar, tutar, tutmaz... Ata bu istəklə qalmayıb və onu belə görməyib. O bütünlüklə özünün təsdiqini görüb ki, o min il sonra, iki min il sonra, 3 min il sonra Ata özünü görə bilib. Doğrudan da mən buna inanıram. Qətiyyətlə mən inanıram. Mən içimdə yəni bu duyğudan başqa duyğu yoxdur. Buna görə də bəzən adamda belə olur yəni özümün halı nə olursa, mənim özümdə də belə şey olur ha, halı nədirsə, o haldan çıxış eləyirəm. Əşi, bu baş tutmaz ya belə. Yəni artıq bu hal yoxdur. Məndə qəti özüm üçün belə hal var ki, burda Atanın fikri budur. Bu əslində baş tutub. Atanın Peyğəmbərliyi gəlir, təsdiq olunur. Sadəcə olaraq Soylu qardaşımın dediyi kimi möhkəm durmaq lazımdır. Hələ çətin günlərimiz qarşıdadır. Əsas

məsələ odur. Doğrudan da Ocaq özünü yönəldə bilir. Çox böyük bir xoşbəxtlikdir ki, özünü idarə eləyə bilir. Ruhani münasibət, artıq Yer üzündə belə bir ruhani münasibətin özülü qoyulub. Ocaq özünü idarə eləyə bilir. İndi bizim işimiz kamilləşməmizdir və o kamillikdə təbii ki, Atanı biz bütünlüklə görə bildik ki, Ata nədir? Atanı bütünlüklə duya biləcəyik. Nə isə mən sözümü çox uzatmayım. Bir daha təbrik eləyirəm.

***Soylu Atalı:*** Hə, var ol.

***Yolruh:*** Atamız var olsun!

***Soylu Atalı:*** Yenə bir şey əlavə eləyim. Ata heç bir vaxt... Onu düz deyirsən ki, Ata görürdü öz sabahını. Amma heç vaxt demirdi görəsən bizim sonramız necə olacaq? Mən eşitməmişəm Atadan elə şey. Sadəcə hərdənbir nadir hallarda olubdur qeyzlənib, qəzəblənib evladlarına mərasimdə. Deyib ki, hərdən siz özünüzü elə aparırsınız ki, Ata özünü tək hiss eləyir. Bunu deyib belə. O da Ata ərkidir, o da Ata münasibətidir təbii.

Yaxşı, Nurtəkin, sözün varmı?

***Nurtəkin:*** Ataya Səcdə eləyirəm, Bayrağımızı öpürəm. Atamız var olsun!

***Soylu Atalı:*** Bir az öncə mən deyirəm ki, yerində quyucuq "mənim sözüm yoxdur" deməyin. Yenə Nurtəkin deyir ki, yox. Qorxa-qorxa. Söz verəndə niyə qorxursunuz? Sözün varmı, Üstün? Sözün yoxdur. Yalnız işarə. Bayrağımızı öp, səcdə qıl. Hər kəsi mən bu törənlərimiz elədir ki, hər kəsin sözü varsa mən dinləmək istəyirəm.

***Üstün:*** Ataya Səcdə qılıram.

***Soylu Atalı:*** Elə yox, ay Üstün, elə yox. Ənənəmizi yaxşı eləyin, yaxşı aparın. Elə sönük deyirsən, Ataya səcdə eləyirəm, Bayrağımızı öpürəm. Yox, gəlin bura və ucadan deyin: Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Belə bir Müqəddəs günümüzü kutlayıram, təbrik eləyirəm və Ataya Səcdə eləyib Bayrağımızı öpürəm. Belə bir əhval, gözəl əhvalla. Qorxa-qorxa, səsiniz içinizə... Bu boyda işlər görürsünüz. Məsələn, xüsusilə çox iş görənlərin səsi ümumiyyətlə çıxmır.

***Qəşəm Ruhdaş:*** Üzr istəyirəm, onlar sözünü işlərdə deyirlər.

***Soylu Atalı:*** Ona görə də o əhval yüksək olmalıdır. Əhvalını uca tutmalıdır. Bu Ruhani hünər işidir. Haqqın var buna. Haqqın var sənin bu boyda işin qabağında qısılmaq olmaz. Çox belə vüqar... Ata gedirdi küçədə. Gedirdi belə gedirdi. Birdən belə eləyirdi. *(Soylu baş və bədən hərəkətləri ilə Atanın vüqarlılığını göstərməyə çalışır. –* ***N.A.****)* Mən deyirdim ki, hərdən mənə bir cür gəlirdi. Ata niyə belə eləyir? Həqiqətən sonra deyirdim ki, Ata bütün dünyaya meydan oxuyur. Ata onu qəsdən eləmirdi. Atanın içində. Ata başdan-ayağa baxırsan vüqardır və Ata oturaq həyat keçirdiyinə görə bir balaca hiss eləyirdim ki, bir balaca bədən yığılan kimi . Ata bədənini sazlayırdı ki, şax dursun.

***Qəşəm Ruhdaş:*** Çox doğru tutmusunuz onu, çox olub belə. Biz dəfələrlə çayxanaya getmişik, gedirdi, gedirdi, nə isə fikirləşirdi birdən belə.

***Soylu Atalı:*** Hə, hə. Bütün halı vüqardır. Heç belə dünyanı vecinə almırdı ey. Doğrudan. Dünyanı nə mənada vecinə almırdı? Peyğəmbər dünyanı vecinə almaya bilməz. O mənada ki, ətraf filan. Kim nə dedi, necə gəldi. Vecinə deyildi. O İnam, o vüqar yarada bilər yalnız. O əhval. Ən böyük işlər görə bilərsən. İçinin əhvalı sönük olar, vüqarsız olarsan, Allah eləməsin işlərin qalar burda özün usanıb gedərsən, tükənə bilərsən. Ona görə içdən qurulma, əhval baxımdan içdən qurulma. Böyük söhbətdir.

Buyur, hə səcdə elədinmi? Bayrağımızı öp.

***Üstün:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Mən Soylu danışanda həm də yadıma o düşdü, yəni mən deməsəydim. Səhər tezdən Yolnurla danışanda o da uzaqda olduğu üçün, gələ bilmədiyi üçün təəssüflənir və dedi ki, mənim də adımı bir yadınıza salarsınız. Mən elə bilirəm ki, bizim keçirdiyimiz Qutsal

Bitiqlərin burda ünvanlaşmasıyla bağlı fərəhi o da keçirir orda və elə hesab eləyirəm ki, o da özünü burda hiss eləyir. Fərəhli və uğurlu. Atamız var olsun!

***Soylu Atalı:*** Çox yaxşı, qoy eləsin. Eləməmək haqqı yoxdur. Ocaqda ümumiyyətlə dediyim kimi, Ocaq vüqar hadisəsidir. Yəni onu süni şəkildə qabartmaq olmaz. Süni şəkildə vüqar görünüşü yaratmaq olmaz. Amma vüqarlı olmaq gərəkdir. Oranı da düzgün ifadə eləmək gərəkdir. Çəkinməmək. Vüqarı olan heç vaxt vüqarıyla görünməkdən qorxmamalıdır, çəkinməməlidir. O eqoizm anlamına gəlmir. Vüqarla xudbinlik bir şey deyil. Xudbinlik ayrı şeydir. Xudbinlik heç nəyin yoxdur, için tamam boşdur, orda çaqqal, canavar ulayır, amma özün dimdiksən. Xudbinlik odur. Vüqar isə için o qədər zəngindir, doludur ki, fərəhin bütün üzündə, halında aşıb-daşır. Vüqar ayrı şeydir.

Sözün varmı qardaş?

***Uluruh:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Bayrağımızı öpürəm.

Mən bu Müqəddəs Bitiqlərin – On Qutsal Bitiqin yeni ünvanda – Soylu qardaşımın evində qəbulu münasibətilə təbrik eləyirəm.

***Soylu Atalı:*** Var ol.

***Uluruh:*** Mən törənlə bağlı yalnız ümumiyyətlə törənin gedişində həqiqətlərlə yaşadım, dərk elədim. Yalnız bir məqamı demək istəyirəm ki, içimdən gələn bir hal kimi qardaşım Soylu, biz bəzən doğrudan da səni incidirik. Mənə bu törən bir də onu dedi ki, doğrudan da hardasa, mən də zəiflik eləyirəm. Arxanda daha ciddi durmaq. Doğrudan da. Yəni oyun oynamıram. Amma bəzən nə isə unuduram. Yalnız onu demək istəyirdim.

Atamız var olsun!

***Soylu Atalı:*** Var ol, xoşbəxt ol. Sənin də yoxsul komana zəngin Bitiqlər qəbul eləyəcəyik.

Yüksək, söz: Yüksək deyirəm, Güntay, sözün varmı?

***Güntay:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Bayrağımızı öpürəm.

Bu gün Asif Atanın – İnam Atanın Ocağında Onluq Qutsal Bitiqlərin törənini uca qardaşım Soylunun evində keçirilməsi münasibətilə qardaşımı təbrik edirəm.

***Soylu Atalı:*** Var ol.

***Güntay:*** Mən bir gənc Ocaqçı olaraq bu gün mənim də fərəh hissi, sevinc hissi oyanır içimdə ki, bu gün mən hardayam, özümü harda dərk edirəm və öz mənliyimi, özümü harda tapıram mən. Bəlkə mən Ocağa gələnəcən öz kimliyimi də bilmirdim, öz Türkülüyümü də bilmirdim. Ancaq burada mən özümü tapmışam. O bədbin insanlar, xudbin insanlar quyunu görür. Ancaq quyunun göyündə o parlayan nuru, işığı görə bilmir. Mütləqi dərk edən, Mütləq İnamı dərk edən hər bir Ocaq Evladı orada bir işıq görür və o işığın sayəsində orada törəyəni görür. Mən hər bir Ocaqçını bugün, hər bir Ocaq evladını bugün təbrik edirəm bu törənin keçirilməsi münasibətilə hamını təbrik edirəm.

***Soylu Atalı:*** Var ol.

***Güntay:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Bayrağımızı öpürəm.

***Soylu Atalı:*** Xoşbəxt ol.

Türkel sözün varmı?

***Türkel:*** Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Bayrağımızı öpürəm.

İndiyə kimi bu evdə əsasən Ocaq Yükümlüsünün təsiri var idi. Məsələn, Ocaq Yükümlüsü yaşayır. Ona görə bu evdə Ruhanilik var, filan. Amma məsələn, bu evdə elə bil ki, belə götürsək, mən məsələn, yaşayıram, tutalım ki, yemək üçün, yaşamaq üçün filan.

Amma məsələn, ruhani yaşamağını da Ocağı içində yaşatmaqla yaradıram, eləyirəm. Məsələn, amma indi bu kitablar qəbul olunur. Ocaq Yükümlüsünə və burda Ruhanilik artır və mən o Ruhaniliyimin içində oluram, Ocağın içində oluram elə bil ki. Məsələn, mən gələndə yadımdan çıxdı Ocaq Yükümlüsünü təbrik eləmədim. Əslində belə baxanda bu elə bil ki, bizim hər birimizin elə bil hər birimiz təbrik eləməliyik bir-birimizi. Çünki təkcə Ocaq Yükümlüsü yox, burda oturanların da demək olar ki, Bayram kimi bir əhvalıdır. Ona görə gələndə mən yüksək əhvalla, filanla olmaq istəyirəm. Bugün doğrudan da fərəhli bir gün olmalıldır ki, ümumiyyətlə, bu kitablar qəbul olunubsa, bu evin fərəhi daha da artmalıdır. Ona görə mən həm Ocaq Yükümlüsünü, həm də özümü təbrik eləyirəm.

***Soylu Atalı:*** Bu kitabları indi Ruhtay da, Türkel də, bax o biri qardaşı da *(Ulunur)* böyük bir xəzinənin içində olduqlarını zaman-zaman duymalıdırlar, bilməlidirlər və bunları açıb oxumalıdırlar. Açın oxuyun. Amma oxumağın şərti var: oxuyanda səliqəli yerdə, toz olmasın. Öpüb gözünün üstündə qoymaq, səliqəylə açıb oxuyub, yenidən eyni əhvalla öpüb yerinə qoymaq. Çox yüksək səviyyədə kitablarımıza yanaşmaq. Amma oxumaq. Nə oxuyursunuz, nə anlayırsınız anlayın. Anlamasanız belə oxuyun. Oxuya-oxuya anlayacaqsınız. Amma oxumaq lazımdır. Kitab elə ona görə gəlir ki, o oxunsun. Təkcə ora yaraşıq üçün qoyulmağa gəlmir evlərə. İşin bir pis cəhəti odur ki, elə Türkün belini qıran həm də odur ki, gətirib Quranı ən yüksək yerdə qoyur, heç oxumur da. Bilmir ki, nədir? Həqiqətən suvenir kimi ən yüksək yerə qoyur.

***Ulusəs:*** Quran oxusaydı heç belə dalınca düşməzdi.

***Soylu Atalı:*** Hə, ona görə oxumaq lazımdır. Evlərə gəlir. Birinci növbədə ondan ötrü ki, o evdəki insanlar ondan bəhrələnsinlər, işıqlansınlar, öyrənsinlər və öyrətsinlər. Qonum var, qonşu var, ətraf var. Çox böyük şansdır, çox böyük fürsətdir. Yararlanmaq lazımdır bu şansdan.

Uğur, sözün varmı?

***Uğur:*** Sözüm yoxdur.

***Soylu Atalı:*** Amma bir səcdə elə.

***Uğur***: Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə! Bayrağımızı öpürəm.

***Soylu Atalı:*** Sən Ocağımızın gələcəyisən. Elqala, sözün varmı? Səcdə eləyirsənmi? Gəl. Əlini ürəyinin üstünə qoy, gəl bir əminin yanına, bir bura gəl. Sən də Ocağımızın gələcəyi olmalısan. Əlini ürəyinin üstünə qoy. Ataya bir səcdə qıl. Asif Ataya səcdə eləyirsənmi? Asif Ataya Səcdə et. Bayrağımızı öpmək istəyirsənmi? Gəl, qaldırım. İştirakçımız, hər bir iştirakçının...

Beləliklə, bizim bugünkü törənimiz, Müqəddəs törənimiz öz sonuna çatır. Hesab eləyirəm ki, Ocağın indiyə qədər gördüyü işlər var, ən uca işlərdən biridir bu iş. Böyük bir Ocaq hadisəsidir. İndi bunu İşıqlı qardaşımız mətbuatda çıxardar. Başqa sözlə, törənləri bir yox, bir neçə qəzetdə də çıxartmaq olar. Mətbuatda çıxardar yığcam, aydın şəkillərlə. Bayaq dediyim kimi, bunu Türkel səsdən sözə çevirər və o kitablaşar. Kitab şəklində də qoyular. Bəli, arzum odur ki, Türkel, arzum və tələbim Bitiqlər olduğu yer səliqəli saxlanılır, tozu tez-tez alınır, toz alınır və dediyim kimi, bu odada artıq-əskik davranmalar tamamilə yığışdırılır. Belə şeyə biz yol vermirik. Bu bizim Mütləqə İnam Ocağı olaraq özümüzün yaratmaq istədiyimiz və yaratmaqda olduğumuz böyük Türk millətinin özünün sabahına, gələcəyinə, dəyərinə verdiyimiz qiymətdir. Verdiymiz qiymətdir, biz o qiymətin dəyərini bilməliyik. Biz necə qiymətləndiririk onu? Ona görə də bizim özümüzdən çox şey asılıdır. Biz necə veririk onu? Necə veririk? Adi vermirik biz onu? Mən bir çox dəfə demişəm yenə sizə deyirəm adamların çoxlarına adi görürür, ibtidai görünür, primitiv görünür. Bunlar belə kitabı tikirlər, parçanın içinə qoyurlar. Öpürlər, belə eləyirlər. Adi görünür bu. İnanın ki qəti

adi bir şey deyil. Belə ənənəyə xalqın içində böyük ehtiyac var. Elm hara gedir getsin. Bütün qalaktikaları gəlsin kəşf eləsin. Elm yenə də bu səcdəli münasibətin qabağında bizim yaratdıqlarımızı əvəz edə bilməz. Elm ondan aşağıdır. İnsani münasibət, insana münasibət. Elm nə olur olsun. Mənim buna münasibətim olmalıdır, sevməli olduğumuz hər şeyi çirkinləşdiriblər. Bunu öpə bilmədiyim üçün, bunu urvatda tuta bilmədiyim üçün, sevməli olduğumuz hər şeyi çirkinləşdiriblər. Uşaq təbəssümünü çirkinləşdiriblər. Bizim kitaba münasibətimiz o körpənin məsumluğuna münasibətimizdir, insana insanlığa münasibətimizdir. Odur, elm nə olur olsun. Mən insanı sevmək istəyirəm, mən bu insana münasibət bəsləyirəm. Onun özülüdür bu münasibət. Onu yaradır. Ona görə sizə adi və primitiv görünməsin. İnsanı əzizləmək bir xudbin üçün gülməli görünür. Doğrudan elədir. Bir eqoist üçün, tutalım ki, biri insanı əzizləyər, nəvaziş göstərər, filan eləyər. O ona adi primitiv bir şey kimi görünür. Onun içində ona yer yoxdur. Onun içi ayrı şeydir, ayrı havadır. Amma insana gözəl təsir bağışlayar. Nə yaxşı bu var. Nə yaxşı həyatda insana münasibət varıymış. İnsana münasibətin olmadığı üçün dünya axıb gedir. O günü gedirəm 28 Mayda, işdən çıxıb gedirəm. Üç nəfər də belə durub söhbət edir. Qəfil döndü, əlini soxdu cibimə. İstədim buna bir şapalaq vuram. Görürəm ki, əllərində şey tutublar, mənə çox pis təsir eləyir, belə törəndə mən hərdən hirslənirəm, hirsimi saxlamaq istəyirəm. Götürüb Ətağadır, Nətağadır bunun şəklini soxub mənim cibimə. Götürdüm belə çırpdım yerə. Qayıdıb arxamca sən neylədin, onun cəddi sənin belini qırsın, yekə eşşəksən belə, başladı mənim arxamca. Geri döndüm, dedim bura gəl. Qaçdı arxası-arxası o tərəfə. Budur, bax, sənin məmləkətinin durumu budur. İndi gəl öpüb gözünün üstünə qoyma. Özü də bu bir deyil ki, milyondur. İndi gəl. Aliminə denən ki, bunu öpmək bir primitiv şeydir. O alimin gözünə barmaq soxmaq lazımdır. Get bax odur. Ləyaqətsizlikdir, hərcayilik. Bu hərcayiliyin qabağını ala bilərsənmi? Nə ilə alacaqsan? Elminlə ala bilirsən? Ala bilməyəcəksən. Bununla alacam *(Bitiqləri göstərir – **N.A.**).*

***İşıqlı:*** Alimlərin çoxu Qurana baş əyir.

***Soylu Atalı:*** Belə müqəddəs günümüz başa çatır. Ata qarşısında Ocağın üzü ağdır, ağ olsun. Törənimizi bitiririk. Atanın adıyla və burdan hamımız dururuq, gedirik ikinci ünvanımıza, Uluruhun evinə. Bura bir az darlıq elədiyinə görə gecikmə olmasın, qat-qarışıq olmasın deyə nəzərə aldıq ki, bizim çay süfrəmiz orda açılsın, orda gözəl süfrə ətrafında doğmalaşırıq. Hamımız gedirik. Ordakılar da orda hazıralyır. Hamımız otururuq stolun başında çayımızı içirik, söhbətimizi eləyirik və bitirirk.

***Elqala:*** Soylu əmi, uşaqlar da gedir?

***Soylu Atalı:*** Hə. Uşaqlar da gedir. Hamımız gedirik.

Yaxşı bitirək.

***Hamı:*** Ata Ruhunu Ürəyimzidə aparırıq. Atamız var olsun!

***Soylu Atalı:*** Ricalarımızı deyək, Axşam Ricasını və Təması deyək. Sonra Bayrağımızı götürək.

*Sonda hamı bir yerdə çay süfrəsi ətrafında əyləşdi.*

*Səsdən sözə çevirdi:* ***Türkel Atalı***
*(22 Ata Ayı, 31-il. Saray-Soylu).*

*Bilgisayarda yazıb tərtib elədi:* ***Nurtəkin Atalı.***

*Redaktə və korrektə elədi:* ***Soylu Atalı.***